Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

3
SENTYABR
2019-cu il

№ 154 (4052)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# POLŞADA İKİNCİ DÜNYA MÜHARİBƏSİ KONFRANSI PAŞİNYANI RÜSVAY ETDİ - PUTİN GETMƏDİSƏ...

■ səh. 8 ■

Prezident 1 milyon 350 min adamın əməkhaqqını artırdı - Azərbaycanda... ■ səh. 3 ■

Türkiyə-Azərbaycan münasibətlərinin tam vizasızlıq dövrü başladı... ■ səh. 3 ■

"DQR" "prezidenti" "Miatsum"un əsl müəllifinə "qəhrəman" adı verməklə Paşinyanın 5 avqust çıxışını vurdu ■ səh. 7 ■

AXCP İnqilab Kərimovun camaata silah göstərməsinə və İŞİD-ə dəvət göndərməsinə hələ münasibət bildirməyib ■ səh. 5 ■

Repressiya olunmuş 20-30-cu illər kommunistlərinin millətçi fəaliyyəti təsdiqlənir ■ səh. 10 ■

Ucuz Çin məhsullarının Azərbaycana yeni təhlükəli axını başlana bilər - ABŞ-Çin "müharibəsinin" neqativ təsiri... ■ səh. 11 ■

Spirtli içkilərin keyfiyyət və təhlükəsizlik göstəriciləri lazımi səviyyədə olubmu... ■ səh. 15 ■



■ səh. 9 ■

## Paşinyanın «heç vaxt anti-İran mövqe tutmayacağıq» bəyanatı Qarabağ münaqişəsinin həllinə yeni atmosfer gətirir...





Paşinyan Qarabağ həll prosesini uzatmaq üçün yeni bəhanə tapıb - «icazə verin biz də iqtisadi olaraq inkişaf edək, sonra...» ■ səh. 6 ■

Köçəryanın Qafqazda sülh və təhlükəsizliyə töhfə verməsi barədə fikir böyük etiraz doğurdu... ■ səh. 7 ■

«Leveland» kursu Avstriyada oxumaq üçün hərədən 3500 yığdı, sonra yoxa çıxdı... ■ səh. 13 ■

■ səh. 4 ■ Azərbaycanın Dövlət müstəqilliyi günü 30 avqusta keçirilsə...



■ səh. 12 ■ Banklar real sektora kredit vermək əvəzinə, sərbəst pulu Mərkəzi Banka depozitə qoyurlar...



■ səh. 12 ■ Dövlət müəssisələrinin götürdükləri kreditləri vaxtında ödəyə bilməməsinin səbəbləri...



■ səh. 14 ■ Müəllim olmaq istəyənlərin psixoloji durumu da öyrəniləcək



■ səh. 13 ■ Peşə məktəblərinə qəbul olunanların çoxu aşpazlıq ixtisası seçir...



## ATƏT sədri Minsk Qrupunun işi ilə bağlı niyə nikbindir?

**Mən Dağlıq Qarabağ münaqişəsi tərəflərinin gərginliyin azaldılması istiqamətində vicdanlı cəhdlərinin davam etdirməsini görmək istərdim.**



Bunu özəl olaraq "Trend"ə Slovakiyanın Xarici işlər naziri və ATƏT-in hazırki sədri Miroslav Layçak deyib.

M.Layçak qeyd edib: "ATƏT-in Minsk Qrupunun işi ilə bağlı nikbinliyimi qoruyub saxlayıram, həmsədrlərin danışıqlar prosesində irəliləyiş əldə edilməsi ilə bağlı qiymətləndirmələrini öyrənmək məqsədilə onlarla daim fəal ünsiyyətdəyəm. Mən Minsk Qrupu həmsədrlərinə tam dəstək göstərirəm və biz əvvəlki kimi bu prosesi, liderlərin atəşkəs rejiminin möhkəmləndirilməsinə sadiq qalmalarını, humanitar sahədə tədbirlər görülməsini pozitiv qiymətləndiririk.

Mən Dağlıq Qarabağ münaqişəsi tərəflərinin gərginliyin azaldılması, sülhə və danışıqlarda mövcud olan irəliləyişə müsbət təsir edəcək mühitin yaradılması istiqamətində vicdanlı cəhdlərinin davam etdirməsini görmək istərdim. Dialoq istənilən irəliləyiş üçün ən mühüm ön şərtdir".

## "4 milyardı yeməmişəm və bəraət tələb edirəm..."

*Cahangir Hacıyevə hökm oxunma məqamı yetişdi*

**Sentyabrın 2-də Bakı Ağır Cinayətlər Məhkəməsində mənimsəmədə təqsirləndirilən "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyev, onun bacanağı İsmayıl Hidayət-zadə, sabiq deputat Dünyamin Xəlilov və digərlərinin cinayət işi üzrə məhkəmə prosesi davam edib.**



"Trend"in məlumatına görə, hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərdən Cahangir Hacıyev və Dünyamin Xəlilov son söz deyib. D.Xəlilov bildirib ki, Beynəlxalq Bankdan götürülmüş kreditlər xaricdəki layihələrə sərf edilib: "Hər hansı mənimsəmə və talama cinayətində iştirak etməmişəm. Barəmdə bəraət hökmü çıxarılmasını tələb edirəm".

C.Hacıyev isə son sözündə bildirib ki, ona qarşı irəli sürülən 4 milyardlıq ittiham şişirdilib. O bildirib ki, bankın pulunu mənimsəməyib: "Mən bankın pulunu mənimsəməmişəm. Barəmdə bəraət hökmü çıxarılsın".

Məhkəmə son sözlərdən sonra müşavirəyə yollanıb və proses qeyri-müəyyən müddətə təxirə salınıb.

## Türkiyə Rusiyadan Su-35 və Su-57 alacaqmı... Moskvadan açıqlama...



**"Su-35 və Su-57 döyüş təyyarələrinin satın alınması Türkiyə tərəfinə bağlı məsələdir". Baki-xeber.com xəbər verir ki, bunu Rusiya Baş nazirinin köməkçisi Yuri Borisov deyib.**

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın 27 avqustda Moskvaya səfərindən sonra "Türkiyə Rusiyadan döyüş təyyarəsi alacaqmı" müzakirələrilə bağlı sualı cavablandıran Borisov Türkiyənin, xüsusilə Su-35 və Su-57-yə maraq göstərdiyini bildirib və qeyd edib ki, iki ölkə arasında ola biləcək anlaşmaya Ankara qərar verəcək.

## Gürcüstanın Baş naziri istefa verdi

**Gürcüstanın Baş nazir Mamuka Baxtadze istefa verib. "Trend"in məlumatına görə, bu barədə onun "Facebook" səhifəsindəki paylaşımında qeyd olunub.**

Bir qədər əvvəl Mamuka Baxtadzenin bu barədə sentyabrın 2-si saat 15:00-da tok-şouda açıqlama verəcəyi deyilirdi.

Təsdiqlənməmiş məlumata görə, Giorgi Qaxaria Baş nazir vəzifəsində Mamuka Baxtadze ilə əvəz olunacaq və İrakli Qaribaşvili daxili işlər naziri vəzifəsinə qayıdacaq.

# "TurAz Qartalı - 2019" Azərbaycan-Türkiyə birgə taktiki-uçuş təlimləri başladı

**Azərbaycanla Türkiyə arasında illik hərbi əməkdaşlıq planına əsasən, iki dövlətin Hərbi Hava Qüvvələrinin iştirakı ilə sentyabrın 2-dən ölkəmizdə "TurAz Qartalı - 2019" birgə taktiki-uçuş təlimləri başlayır.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən "Trend"ə bildiriblər ki, təlimlərdə "MiQ-29", "F-16", "Su-25", "P-235" "Kasa" təyyarələri, "Mi-35", "Mi-17", "Sikorski" UH-70, CH-47 "Çinok" və "ATAK/AH-1W" helikopterlərindən ibarət 30-dək aviasiya vasitəsi iştirak edəcək.



Təlimlərdə Azərbaycan Hərbi Hava Qüvvələri, Türkiyə Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Quru Qoşunlarının aviasiya vasitələrinin müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət, döyüş uzlaşması imkanlarının öyrənilməsi, axtarış-xilasetmə tədbirlərinin icrası, havadan zərbələr endirməklə yer hədəflərinin məhv edilməsi və digər tapşırıqlar yerinə yetiriləcək.

Təlimlər sentyabrın 16-dək davam edəcək.

# Vilayət Eyvazov Qəbələdə Daxili Qoşunların hərbi qulluqçuları üçün əsaslı təmir edilmiş yaşayış binasının açılışını etdi

**DİN Daxili Qoşunlarının Qəbələ rayonu ərazisində yerləşən "N" saylı hərbi hissəsinin zabit və gizirləri üçün əsaslı təmir edilmiş yaşayış binasının istifadəyə verilməsinə həsr olunmuş mərasim keçirilib.**



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, tədbirdə iştirak edən respublikanın Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov yeni binada mənzillə təmin olunmuş sakinlər qarşısında çıxış edərək onları təbrik edib, yeni mənzillərində xoşbəxtlik, yüksək rifah, eləcə də xidmətdə uğurlar arzulayıb. O, zati-aliləri cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkənin ictimai-siyasi, iqtisadi həyatında, ordu quruculuğunda böyük uğurlar qazanıldığını, daxili işlər orqanlarının maddi-texniki bazasının daha da möhkəmləndiyini, hərbi qulluqçuların sosial-məişət şəraitinin ilbəil yaxşılaşdığını vurğulayıb. Nazir deyib ki, son illər Daxili Qoşunlar üçün də müxtəlif təyinatlı onlarca obyekt, hərbi şəhərciklər, o cümlədən, hərbi qulluqçular üçün yeni yaşayış kompleksləri, əsgər kazarmaları, müasir avadanlıqlarla təchiz edilmiş tibb məntəqələri və s. tikilərək istifadəyə verilib. Bildirilib ki, yeni təmir olunmuş 5 mərtəbəli 80 mənzilli bu binanın da istifadəyə verilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi böyük diqqət və qayğının bariz nümunəsidir.

Nazir hərbi qulluqçulara verilən mənzillərə baxıb, onlarla həmsöhbət olub. Daxili Qoşunların yeni tikilidə mənzillə təmin olunan zabit və gizirləri, onların ailə üzvləri göstərilən ali diqqət və qayğıya, hərbi qulluqçuların sosial rifah halının, mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılmasına görə ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Daha sonra nazir, general-polkovnik Vilayət Eyvazov Daxili Qoşunların Qəbələ, Zaqatala rayonlarında və Şəki şəhərində yerləşən hərbi hissələrində olub. Bu tədbirlərdə nazir müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov general-polkovnik Vilayət Eyvazova şəxsi heyət və texnika barədə raportlar verib. Hərbi hissələrin sıra meydanında düzülmüş hərbi qulluqçuların və əsgərlərin qarşısında çıxış edən nazir V.Eyvazov ulu öndərin əsasını qoyduğu inkişaf və tərəqqi strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməsi nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının artdığını, beynəlxalq mövqelərinin möhkəmləndiyini bildirib, möhtərəm dövlət başçımızın ümumən ordu quruculuğuna, o cümlədən, Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatına, iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Daxili Qoşunların ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıran nazir şəxsi heyətin ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik bir quruma çevrildiyini məmnunluqla bildirib. O, ölkəmizə qarşı elan olunmamış müharibənin ilk günlərindən Daxili Qoşunların cəbhə xəttində şərəfli döyüş yolu keçdiyini, bu yolda yüzlərlə şəhid verdiyini qeyd edərək, bildirib ki, hələ də torpaqlarımızın 20 faizi işğal altında olduğuna görə hazırda ölkəmiz müharibə şəraitindədir. Ona görə də qüdrətli Azərbaycan Ordusu ilə yanaşı, Daxili Qoşunların şəxsi heyəti də öz üzərinə düşən xidməti vəzifələri ilə bərabər, torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüzün bərpası üçün Ali Baş Komandanın verəcəyi əmrin icrasına hər an hazır olmalı, döyüş hazırlığı səviyyələrini daim yüksək saxlamalıdırlar.

Hərbi hissələrin şəxsi heyətinə konkret tapşırıq və tövsiyələrini verən Daxili işlər naziri sonda daxili işlər orqanlarının, o cümlədən, onun ayrılmaz tərkib hissəsi olan Daxili Qoşunların şəxsi heyətinin fəaliyyətini hər zaman yüksək qiymətləndirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı zati-aliləri cənab İlham Əliyevə dərin minnətdarlığını bildirib və onu əmin edib ki, Daxili Qoşunların hərbi qulluqçuları qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, göstərilən ali diqqət və böyük etimadı xalqına, Vətəninə, dövlətinə və Prezidentinə sədaqətli xidməti ilə doğruldacaqlar. Daxili işlər naziri V.Eyvazovun rəhbərliyi ilə hərbi hissələrin qərargahlarında komandir heyətləri ilə əməliyyat müşavirələri keçirilib. Sonra o, hərbi hissələrin tədris, silah otaqlarında, avtomobil və zirehli texnika parkında, tibb məntəqələrində, yeməkxanalarında olub, hərbi qulluqçuların sosial-məişət şəraiti ilə maraqlanıb.

Nazir əsgər yeməkxanalarında şəxsi heyətlə birlikdə nahar edib.

# Prezident 1 milyon 350 min adamın əməkhaqqını artırdı - Azərbaycanda...

**Məlum olduğu kimi, Prezident İlham Əliyevin 18 iyun 2019-cu il tarixli sərəncamlarına əsasən, sentyabrın 1-dən ölkəmizdə minimum əməkhaqqı 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılıb. Eyni zamanda, dövlət sektorunda çalışanların əməkhaqlarında 20-50 faiz artımlar edilib.**

*"Bu, ölkədə əhalinin sosial vəziyyətinin yaxşılaşmasına necə böyük diqqət göstərilməsinin nümunəsidir"*

***Rəsul Cahangirli:** "Sözügedən qərar xeyli sayda ölkə vətəndaşının yaşayış səviyyəsinin yaxşılaşmasına müsbət təsir edəcək"*



Bununla da Azərbaycanda minimum əməkhaqqı məbləğinin 92,3 faiz artırılmasına, eyni zamanda, bu məbləğin yaşayış minimumunu (180 manat) 40 faiz üstələməsinə nail olunub.

Minimum əməkhaqqının artımı ilk pilləsi minimum əməkhaqqı məbləği səviyyəsində olan vahid tarif cədvəlinin bütün pillələri üzrə edilən artımlar da nəzərə alınmaqla 950 min nəfərin (o cümlədən, dövlət sektoru üzrə 600 min, özəl sektor üzrə 350 min nəfərin) maaşının artmasına imkan verib.

Azərbaycan minimum əməkhaqqının səviyyəsinə görə tək qonşu ölkələrlə deyil, MDB ölkələri ilə müqayisə edildikdə alıcılıq qabiliyyəti indeksi üzrə artıq ikinci yerə sahibdir. Dövlət başçısının 18 iyun 2019-cu il tarixdə imzaladığı sərəncamlarla, eyni zamanda, dövlət sektorunda işləyənlərin əməkhaqlarının 20-50 faiz artırılması isə 400 min vətəndaşı əhatə edib.

İkinci sosial paketin tərkib hissəsi kimi, minimum əməkhaqqının və dövlət sektorunda işləyənlərin əməkhaqlarının artımı ümumən 1 milyon 350 min insanın əməkhaqqı gəlirlərinin əhəmiyyətli şəkildə artması ilə nəticələnib.

Bütövlükdə, sentyabrın 1-dən 1 milyon 350 min nəfərin əməkhaqqının artırılmasının əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, bir belə vətəndaşın aylıq məvacibinin artırılması çox mühüm hadisədir: "Bu, ölkədə əhalinin sosial vəziyyətinin yaxşılaşmasına necə böyük diqqət göstərilməsinin nümunəsidir. Çünki bunun nəticəsində çoxsaylı vətəndaşın sosial vəziyyəti yaxşılaşacaq. Bu günə qədər ölkə başçısı tərəfindən imzalanan fərman və sərəncamlar əhalinin sosial rifah halının yaxşılaşmasına yönəlib. Həmin sərəncamlardan biri də minimum əməkhaqlarının artırılması oldu. Nəzərə almaq lazımdır ki, ilin əvvəlindən ölkə başçısı əhalinin sosial müdafiəsi ilə bağlı 40-a yaxın fərman və sərəncam imzalayıb. Bütün bunların sayəsində 4 milyona yaxın ölkə vətəndaşının həyat şəraiti yaxşılaşmış oldu. Çünki pensiyalar, sosial müavinətlər, büdcədən maliyyələşən bütün təşkilatlarda çalışan işçilərin əməkhaqları artırıldı. Bu tədbirlərdən ən böyüyü isə minimum əməkhaqqının artırılması idi. Minimum əməkhaqqı bu il ərzində 2 dəfəyə yaxın artdı. İlin əvvəlində minimum əməkhaqqı 116 manat təşkil edirdisə, Prezidentin birinci sərəncamı ilə martın 1-dən 180 manata qaldırıldı. Növbəti sərəncamda isə bu məbləğ 180-dən 250 manata yüksəldi. Bütövlükdə, 1 milyon 350 min nəfərin əməkhaqqının artırılması xeyli sayda ölkə vətəndaşının yaşayış səviyyəsinin yaxşılaşmasına müsbət təsir edəcək".

***Vidadi ORDAHALLI***

# Türkiyə-Azərbaycan münasibətlərinin tam vizasızlıq dövrü başladı...

**Məlum olduğu kimi, Azərbaycan Türkiyə vətəndaşları üçün viza rejimini ləğv edib. Qərara əsasən, Azərbaycana 30 günədək müddətə səfər etmək istəyən Türkiyə Respublikasının ümumvətəndaş pasportuna malik vətəndaşları üçün viza tələbi aradan qalırılıb.**



***Elçin Rüstəmov:** "Turizmin inkişafı baxımından Türkiyə üçün viza rejiminin aradan qaldırılması çox müsbət haldır"*

Bundan əlavə, Azərbaycan ərazisində 30 gündən artıq qalmaq istəyən Türkiyə Respublikası vətəndaşlarının statusu Azərbaycan Respublikasının müvafiq qanunları ilə tənzimlənəcək. Həmçinin, Türkiyə Respublikası hökumətinin qərarına əsasən, bu ölkəyə 30 günədək səfər edən Azərbaycan vətəndaşları da viza tələbindən azad edilib.

Qeyd edək ki, sentyabrın 1-dən artıq Türkiyə vətəndaşları Azərbaycana vizasız gəlirlər. Ekspertlər qeyd edirlər ki, viza rejiminin aradan qaldırılması ölkəmiz üçün bir sıra üstünlüklər vəd edir.

Turizm sahəsi üzrə ekspert Elçin Rüstəmov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Türkiyə tərəfi Azərbaycan vətəndaşları üçün viza rejimini təktərəfli şəkildə 2007-ci ildə ləğv edib: "Viza rejiminin ikitərəfli ləğvi hər iki ölkə arasında turistlərin sərbəst gəliş-gedişini təmin edəcək. Azərbaycan vətəndaşlarının da Türkiyədə vizasız qalma müddəti 30 gündür, o zaman turistlər istər Azərbaycanda, istərsə də Türkiyədə rahatlıqla istirahət edə biləcəklər. Məlumdur ki, səyahət üçün başqa ölkələrə gedən turistlər ən çoxu iki həftə müddətində həmin ölkədə qalırlar".

Ekspert hesab edir ki, vizanın Türkiyə vətəndaşları üçün ləğv edilməsi bu ölkədən Azərbaycana gələn turistlərin sayını artıracaq. Çünki Türkiyə qardaş ölkədir. Bu ölkə ilə viza rejiminin ikitərəfli aradan qaldırılması zaman-zaman müzakirə mövzusu olub. Son bir neçə ildir Azərbaycanda turizmin inkişafı istiqamətində dövlət siyasəti həyata keçirilir: "Zənnimcə, bu da həmin istiqamətdə aparılan səmərəli fəaliyyətin bir hissəsidir. Turizmin inkişafı baxımından Türkiyə üçün viza rejiminin aradan qaldırılması çox müsbət haldır".

*"Vizanın Türkiyə vətəndaşları üçün ləğv edilməsi bu ölkədən Azərbaycana gələn turistlərin sayını artıracaq"*

Həmsöhbətimiz onu da vurğuladı ki, 2019-cu ilin 6 ayının yekunlarına görə, Azərbaycana səfər edən turistlərin sayının 12 faizini Türkiyə vətəndaşları təşkil edir: "Azərbaycanın turizm potensialı getdikcə artır, ölkəmizə səfər edən xarici ölkə vətəndaşlarının sayı artır. Düşünürəm ki, viza rejiminin ləğvi Azərbaycana səfər edən Türkiyə vətəndaşlarının sayının artmasına müsbət təsir edəcək. Bu istiqamətdə mövcud potensialdan daha çox istifadə etmək imkanı mövcuddur. Ümumilikdə, Azərbaycanın dövlət idarəetməsində çevik məlumat bazalarının formalaşması və müasir texnologiyaların tətbiqi həm viza sistemlərinin asanlaşdırılmasına, həm də bir çox ölkə üçün vizasız gediş-gəliş sisteminin tətbiqinə imkan yaratmaqla yanaşı, milli təhlükəsizliyin də qorunmasına şərait yaradır".

***Günel CƏLİLOVA***

# Azərbaycanın Dövlət müstəqilliyi günü 30 avqusta keçirilsə...



**Fəzail İbrahimli:** *"Artıq hüquqi-siyasi vəsiqə alan tarixi bir günü dəyişdirmək olmaz"*

**Məhərrəm Zülfüqarlı:** *"...məqbul hesab etmirəm"*

**Faiq Ələkbərli:** *"18 oktyabrda parlament tərəfindən Azərbaycanın Müstəqillik Aktı qəbul edilib və bu, hüquqi baxımdan təsdiqlənib"*

**Bu gün sosial şəbəkələrdə, eləcə də KİV-də Azərbaycanın Dövlət müstəqilliyi günü ilə bağlı məsələ geniş müzakirə edilir. Bəzi tarixçi və ziyalılar hesab edirlər ki, Dövlət müstəqilliyi günü kimi 18 oktyabr deyil, 30 avqust qeyd edilməlidir. Fikri meydana atanlar və onu müdafiə edənlərin bildirdiyinə görə, Dövlət müstəqilliyi günü dəyişdirilməlidir.**

Bəzi tarixçilərin vurğuladığına görə, özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etmiş və müstəqilliyini bərpaetmə prosesində bir neçə vacib qərar qəbul etmiş bir dövlət məhz 30 avqustu Dövlət müstəqilliyi günü kimi qeyd etməlidir.

Məlumat üçün bildirək ki, 30 avqust 1991-ci il tarixdə Azərbaycan Respublikasının Ali Sovetinin növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Bəyannamə qəbul edilib. Tarixçilərin bildirdiyinə görə, bu sənədin adı da, mahiyyəti də göstərir ki, müstəqilliyin bərpası tarixi məhz 30 avqust olmalıdır. Bildirilənə görə, sənəddə açıq şəkildə "Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan xalqının ali dövlət mənafelərini rəhbər tutaraq və onun iradəsini ifadə edərək, 1918-ci ildən 1920-ci ilədək Azərbaycan Respublikasının beynəlxalq birlik tərəfindən tanınmış müstəqil dövlət kimi mövcud olduğunu qeyd edərək, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarında təsbit edilmiş prinsiplərə müvafiq surətdə beynəlxalq birliyin üzvü olan dövlətlər və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmasına ümid bəsləyərək Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunduğunu elan edir" - qeyd olunur. 30 avqust 1991-ci il tarixli qərarda müstəqilliyin bərpa olunduğu və beynəlxalq aləm tərəfindən tanınmaq hədəfi açıqca elan edilir.

Azərbaycan parlamentinin elə həmin gün qəbul etdiyi başqa bir qərarda isə Azərbaycanın artıq müstəqilliyini elan etmiş bəzi dövlətləri tanıdığı bildirilib və onlara da Azərbaycanın müstəqilliyini tanımaqla bağlı çağırış edilib. Azərbaycan Respublikası Ali Sovetinin Bəyanatında qeyd edilir (30 avqust 1991-ci il tarixli və 181-XII saylı): "Azərbaycan Respublikasının Ali Soveti SSR İttifaqının suveren respublikalarının öz müqəddəratını və dövlət quruluşunu kənardan müdaxilə olmadan sərbəst təyin etmək, onların siyasi, iqtisadi, sosial və mədəni inkişafını öz arzusu ilə həyata keçirmək hüququnu təsdiq edərək, öz müstəqilliyini elan etmiş Latviya, Litva, Estoniya, Moldova, Gürcüstan, Ukrayna və Belarusiya respublikalarının bu bəyannamələrinə tərəfdar olduğunu bildirir və onların müstəqilliyini tanıyır.

Azərbaycan Respublikası Ali Soveti respublikalarımız arasında səmərəli iqtisadi və mədəni əlaqələrin uzun illər toplanmış təcrübəsini, bu respublikaların dost xalqlarına rəğbət hissini əsas tutaraq, Azərbaycanla müstəqil Latviya, Litva, Estoniya, Moldova, Gürcüstan, Ukrayna və Belarusiya respublikaları arasında qarşılıqlı faydaya əsaslanan əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə əmin olduğunu bildirir.

Ali Sovet öz dövlət müstəqilliyini elan etmiş respublikaları müstəqil Azərbaycan Respublikasını tanımağa və onunla hərtərəfli əlaqələr yaratmağa çağırır. Müstəqil Azərbaycan Respublikası indiyədək SSRİ-nin tərkibində olan bütün respublikalarla bir-birinin suverenliyini tanımaq, qarşılıqlı hörmət və bir-birinin işlərinə qarışmamaq şərtilə iqtisadi əlaqələri bərpa etmək və özünün bütün öhdəliklərini ardıcıl surətdə yerinə yetirmək əzmində olduğunu və bu istiqamətdə danışıqlar aparmağa hazır olduğunu bildirir".

Azərbaycan parlamentinin 18 oktyabr tarixli qərarında isə qeyd edilir ki, 18 oktyabr 1991-ci il tarixdə Azərbaycan parlamenti Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktını qəbul etmiş və bu Akt daha sonra ümumxalq referendumu ilə təsdiq edilmişdir. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktının "Giriş" hissəsində bildirilir ki, "1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsi qəbul edərək Azərbaycan xalqının dövlət quruluşunun çoxəsrlik ənənələrini dirçəltdi... Lakin 1920-ci il aprelin 27-28-də RSFSR beynəlxalq hüquq normalarını kobudcasına pozaraq, müharibə elan etmədən öz silahlı qüvvələrinin hissələrini Azərbaycana yeritdi, suveren Azərbaycan Respublikasının ərazisini işğal etdi, qanuni seçilmiş hakimiyyət orqanlarını zorakılıqla devirdi və Azərbaycan xalqının çox böyük qurbanlar bahasına qazandığı müstəqilliyə son qoydu... Bunun ardınca Azərbaycan 1806-1828-ci illərdə olduğu kimi, yenidən Rusiya tərəfindən ilhaq edildi. Bütün bunlara baxmayaraq, Azərbaycan xalqı dövlət müstəqilliyi uğrunda mübarizəni davam etdirirdi... "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il avqustun 30-da qəbul etdiyi Bəyannamə də bu mübarizənin yekunu olmuşdur".

Buradan çox aydın görünür ki, hətta 1991-ci il oktyabrın 18-də bu çox dəyərli sənədi (Konstitusiya Aktını) qəbul edənlər özləri də 30 avqust 1991-ci il tarixli Bəyannaməni "müstəqillik mübarizəsinin yekunu" və müstəqilliyin elan edildiyi sənəd kimi qiymətləndiriblər. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktının "Giriş" hissəsinin son cümləsi də məhz belə bitir: "Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə, Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanaraq və "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsini rəhbər tutaraq, bu Konstitusiya Aktını qəbul edir və müstəqil Azərbaycan Respublikasının dövlət quruluşunun, siyasi və iqtisadi quruluşunun əsaslarını təsis edir".

Tarixçilər qeyd edirlər ki, göründüyü kimi, 18 oktyabr tarixli sənəddə söhbət müstəqilliyin elanından yox, məhz elan olunmuş müstəqil dövlətin əsaslarının müəyyənləşdirilməsindən gedir.

Bəzi tarixçilər, ziyalılar hesab edirlər ki, 30 avqust tarixinin Azərbaycanda "müstəqilliyin bərpası günü" (Baltikyanı ölkələrdə olduğu kimi) kimi qeyd olunması daha məqsədəuyğun ola bilər.

Məsələyə münasibət bildirən millət vəkili, tarixçi-alim, professor Fəzail İbrahimli "Bakı-Xəbər"ə açıqlamasında dövlət müstəqilliyi gününün dəyişməz olduğunu dedi. Onun sözlərinə görə, artıq rəsmi status alan bir tarixi günün dəyişdirilməsinə heç bir zərurət yoxdur: "Mən sosial şəbəkələrdə gedən fikirlərə önəm vermirəm, tarix tarixdir. Hesab edirəm ki, tariximizlə oynamaq olmaz. Dövlət müstəqilliyi günümüz də məlumdur, onun tarixi də, onu dəyişmək olmaz. Bizim müstəqillik günümüz 18 oktyabrdır. Artıq hüquqi-siyasi vəsiqə alan tarixi bir günü dəyişdirmək olmaz".

Tarixçi-alim, professor Məhərrəm Zülfüqarlı da hesab edir ki, 18 oktyabr Dövlət müstəqilliyi günü kimi qalmalıdır və onun dəyişdirilməsinə ehtiyac yoxdur. "30 avqustda Ali Sovetdə Konstitusiya Aktı qəbul edilməyib. Həmin tarixdə qəbul edilən sənəd 18 oktyabr 1991-ci ildə qəbul edilən Müstəqillik Aktı üçün bir zəmin idi. 30 avqust sənədi 18 oktyabra doğru atılan bir addım idi ki, sonradan Konstitusiya Aktı qəbul etmək mümkün olsun. 18 oktyabrdan sonra 29 dekabrda referendum keçirildi və Müstəqillik Aktı həmin referendumda təsdiq edildi. Yəni dövlət müstəqilliyi bir sənədlə deyil, xalqın səsi ilə qəbul olunmalı idi və olundu da. Mən qətiyyən Dövlət müstəqilliyi gününün tarixinin dəyişdirilməsini məqbul hesab etmirəm. Bu məsələni kimlər ortaya atıbsa, o adamlar bu proseslərdən xəbərsizdirlər" - deyə M.Zülfüqarlı bildirdi.

AMEA-nın Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərlinin fikrincə, 1991-ci il avqustun 30-da qəbul edilən suverenlik haqqında sənəd bir de-fakto təsdiq halıdır. "Ancaq burada məsələ təkcə ölkənin suverenliyinin de-fakto tanınması deyil, həm də de-yure qəbul olunması faktorudur. Ona görə də hesab edirəm ki, Ali Sovet tərəfindən 18 oktyabrda qəbul edilən qərar öz həllini de-yure tapmışdı. Üstəlik, burada ortada bir-iki ay fərqi var. Mən bir tarixçi kimi bu kimi məsələlərin ortaya atılmasını düzgün bir iş kimi qəbul etmirəm. Onsuz da bizim üçün 18 oktyabr hadisəsi vardı. Digər tərəfdən, bilirik ki, müstəqil Azərbaycan Respublikası özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi hesab edir. Bu mənada biz 28 may - İstiqlal günü də qeyd edirik. Əslində, 18 oktyabr hüquqi-siyasi baxımdan dövlət müstəqilliyimizin bərpası günüdür. Dövlət müstəqilliyi gününü 30 avqusta çəkmək milli şüuru hələ də formalaşmamış gənc nəsildə problem yaradacaq. Bu mənada hesab edirəm ki, müstəqillik gününün tarixinin dəyişdirilməsi o qədər də uğurlu olmazdı. 18 oktyabr və 28 may artıq insanların şüurunda oturuşub. Ümumiyyətlə, bu məsələdə hüquqi məsələləri də nəzərə almaq lazımdır. 18 oktyabrda parlament tərəfindən Azərbaycanın Müstəqillik Aktı qəbul edilib və bu, hüquqi baxımdan təsdiqlənib, bu mənada hesab edirəm ki, yeni bir müstəqillik günü ortaya atmağın mənası yoxdur" - deyə F.Ələkbərli bildirdi.

***İradə SARIYEVA***

# AXCP İnqilab Kərimovun camaata silah göstərməsinə və İŞİD-ə dəvət göndərməsinə hələ münasibət bildirməyib

**AXCP-nin radikal qanadına rəhbərlik edən Əli Kərimlinin ətrafında maraqlı hadisələr yaşanır. Həmin firqə açıq-açığına terrora dəstək ifadə etməyə başlayıb. Əslində, Əli Kərimli və onun ətrafının radikal dini kəsimlə münasibətlərinin yaxşı olduğu, hətta bir-birinə siyasi dəstək jestləri ifadə etmələri göz qabağındadır.**



## Rəfael Becanov: "Əli Kərimlinin susqunluğu onu deməyə əsas verir ki, şəxslərin arasında düşüncənin eyniliyi var"

Taleh Bağırzadə və onun ətrafına göstərilən dəstək, birgə çağırış və eyni şüarla keçirilən etiraz aksiyası və ora toplanan ortaq elektoratın mövcudluğu bu faktın olduğunu inkar edə bilməz. Ancaq bütün bunlarla bağlı Əli Kərimli çıxış yolu tapırdı. Bildirirdi ki, guya məhkəmədə hüquqları tapdanan şəxslərin müdafiəsinə qalxıb. Bir növ, insan haqlarını islam amilindən irəliyə keçirirdi. Ancaq iki gün əvvəl yaşanan bir hadisə Əli Kərimli üçün manevr imkanına yer qoymur. Siyasi mühacir adı ilə Fransaya sığınan, AXCP-nin fəal üzvlərindən sayılan və ən əsası, Əli Kərimlinin doğma əmioğlusu olan İnqilab Kərimovun öz "Facebook" hesabında yazdığı statusa diqqət edək:

"İŞİD heç də hər adamın başını kəsmir... İŞİD 5 manata sifarişlə məhkəmə zalını doldurənların başını kəsir... İŞİD adını dindar qoyub, cindarlıqla məşğul olanların başını kəsir... İŞİD adını müxalifət qoyub, nazirliklərə dal qapıdan girib-çıxanların başını kəsir... Və düşünürəm ki, düz də edir... Azərbaycana xoş gəlirsən, İŞİD...".

Adam, faktiki olaraq, terrora olan rəğbətini ifadə edir, hətta həmin təşkilatı açıq şəkildə Azərbaycana dəvət edir, konkret olaraq kimlərin başının kəsilməli olduğu ilə bağlı ünvan da göstərir. Ola bilər, Əli Kərimli desin ki, mən əmioğluma görə məsuliyyət daşımıram. Ancaq burada məsələ fərqlidir. İnqilab Kərimov, faktiki olaraq, AXCP-nin üzvüdür, həmin təşkilatdan istefa verdiyini və ya çıxarıldığını deməyib. Bundan əlavə, bir çox cəbhəçi onun terroru dəstəkləməklə bağlı çıxışının altında şərh yazıb, hətta məlum postu bəyəniblər də. İnqilab Kərimovun odlu silahla birlikdə də görüntüsü yayılıb. Nədənsə, başqa bir gəncin silahla yayılan görüntüsündən siyasi məqsəd üçün istfadə edən Əli Kərimli İnqilab Kərimovun analoji fotosu və İŞİD-i Azərbaycana dəvət etməklə bağlı fəaliyyətinə aydınlıq gətirmək istəmir. Partiya sədrinin susqunluğu nə ilə izah oluna bilər?

AXCP adına iddialı olan digər siyasi qurumun funksioneri Rəfael Becanov "Bakı-Xəbər"ə bildirdi ki, bütün çıxışlarında ölkədə demokratiyanın olmasını tələb edən bir adam bu məsələyə mütləq reaksiya verməli idi: "Bu onun borcudur. İŞİD qaniçən bir təşkilatdır, onu Azərbaycana çağırmaq hansı anlama gəlir? Bunu edən Əli Kərimlinin rəhbəri olduğu firqənin üzvüdürsə, niyə Əli Kərimli məsələyə aydınlıq gətirmir? Əksinə, biz Əli Kərimlinin tərəfdarları tərəfindən İnqilab Kərimovun fikirlərinə dəstəyin ifadə edildiyini gördük. Ancaq bundan cəmi iki gün əvvəl bir cavan oğlanın nə vaxtsa əlində silahla şəkil çəkdirməsinə Əli Kərimli şəxsən münasibət bildirdi. Bəlkə də zarafatyana deyilən bir sözü hakimiyyətin onlara ultimatumu kimi dəyərləndirdi. Bəs indi niyə danışmır? Məgər həmin cavan oğlan İŞİD-dən təhlükəlidir? Belə bir fakt varıydısa, hüquq-mühafizə orqanlarına müraciət edilməliydi ki, "Yurd"dan kimsə hədələnib. Amma İnqilabın yazdığı göz qabağındadır. Necənci dəfədir o, silahla foto çəkdirib hakimiyyəti hədələyir, söyür. Əli Kərimlinin susqunluğu onu deməyə əsas verir ki, şəxslərin arasında düşüncənin eyniliyi var.

**"AXCP adına iddia edən bir qurumun radikal dindarlarla heç bir əlaqəsi olmamalıdır"**

AXCP adına iddia edən bir qurumun radikal dindarlarla heç bir əlaqəsi olmamalıdır. Bunlar isə Milli Şurada dostluq edirlər. Dini radikalizmlə bağlı həbs edilən şəxslərdən "siyasi məhbus" düzəldirlər. Azərbaycan dünyəvi dövlətdirsə, buradakı radikal dindarlıq nəyə lazımdır? Söhbət kiminsə dini əqidəsindən getmir. Biz bilirik ki, islamın radikal siyasiləşmiş cərəyanlarının ən başlıca məqsədi Azərbaycanda şəriət dövləti qurmaqdır. Əgər onlar ölkəmizin dünyəvi quruluşunu, təməl prinsiplərini zədələmək istəyirlərsə, niyə özünü demokratiya aşiqi sayan şəxs onlarla bir sırada olmalıdır? Hesab edirəm ki, hüquq-mühafizə orqanları bu məsələni dərindən araşdırmalıdırlar. Çünki belə hadisələrin ölkəmizin təhlükəsizlik mühitinə ciddi təsiri ola bilər".

*Məhəmmədəli QƏRİBLİ*

# Əli Kərimlinin olmayan güc və imkanlarla hakimiyyəti hədələməsinin məqsədləri...

**Artıq AXCP sədri Əli Kərimli guya olmayan gücü və elektoratına söykənərək hakimiyyətlə hədə tonunda danışmağa başlayıb. Buna səbəb hansısa bir gənclə onun partiyasında təmsil olunan başqa bir gənc arasında yaranan virtual çəkişmə olub. Həmin gəncin silahla çəkdirdiyi şəkilləri əsas gətirən Əli Kərimli bütün məsuliyyəti hakimiyyətin üzərinə atmaq istəyir.**



## Elşən Həsənov: "Onlar arasında sanki kim daha radikal formada hakimiyyəti tənqid edə bilirsə, o ana müxalifət sayılır kimi bir lüzumsuz yarış da gedir"

Azərbaycan Prezidentinin köməkçisi Əli Həsənov AXCP sədri Əli Kərimlinin bir sıra iddialarına cavab verib. Ə.Həsənov özünün sosial şəbəkədəki hesabında aşağıdakı yazını paylaşıb: "Özlərini hakimiyyətə "opponent" hesab edən, siyasi fəaliyyətləri sosial şəbəkələrdə əsassız, qərəzli, şantaj xarakterli iddialar irəli sürməkdən ibarət olan ayrı-ayrı qrup və fərdlər ölkədə ictimai narazılıq formalaşdırmaq üçün ən səviyyəsiz və primitiv üsullara əl atmaqdan belə çəkinmirlər. Öncə də qeyd etdiyim kimi, AXCP sədri Əli Kərimli başının dəstəsi ilə birlikdə ölkədə və dünyada baş verən bütün mənfi yüklü halları Azərbaycan hakimiyyətinin və dövlətinin adı ilə bağlamağa cəhd göstərir. Bu mənada, əlində silah foto çəkdirib özünü "fədai" kimi reklam edən birisini hakimiyyətlə əlaqələndirmək də həmin absurd iddiaların davamından başqa bir şey deyil.

Silahlı dəstələr yaratmaq, insanları silahla hədələmək, onların evlərinə basqın etmək, itaət etməyənləri döyüb avtomobilin yük yerinə salmaq və digər bu kimi hüquqazidd əməllər Əli Kərimlinin dövlət müşaviri olduğu AXC-Müsavat hakimiyyətinin üsul-idarəsi üçün xarakterik hallar olub. Bugünkü Azərbaycan hüquqi dövlətdir, burada heç bir cinayətkar cəzasız qalmır, günahı olmayan da cəza almır. Dövlətin hansısa "fədailər qrupu"na və digər bu kimi qeyri-qanuni dəstələrə ehtiyacı yoxdur, onun asayişi yaradan, qanunlara əməl olunmasını təmin edən hüquq-mühafizə sistemi və ədaləti bərpa edən məhkəməsi var. Buna görə də öz siyasi ambissiyalarını reallaşdırmaq məqsədilə şər-böhtan yaymaq və ictimaiyyəti çaşdırmaq lazım deyil. Belə əməllərə yol verən onun hüquqi məsuliyyətini də dərk etməyi bacarmalıdır.

Əli Kərimliyə xatırlatmaq istərdim ki, əli silahlı şəkil çəkdirib paylaşmaq onun özünün ortaya qoyduğu bir nümunədir. Əgər bu gün kimsə bu "qəhrəmanlığı" təkrarlayırsa, bunun səbəbini hakimiyyətin siyasətində yox, AXCP-nin və onun başçısının əməllərində axtarmaq daha düzgün olar.

O ki qaldı Əli Kərimlinin "özünüzü yığışdırın", "məsuliyyətli olun" tipli hədələrinə, demək istərdim ki, nə o özü, nə də arxalandığı çevrələr Azərbaycan hakimiyyəti ilə təhdid dilində danışa bilməz. Buna görə də həmin ifadələri onun özünə qaytararaq deyirəm: "Əli Kərimli, reallıq hissini itirmə!".

Göründüyü kimi, Əli Kərimlinin hakimiyyətlə hədə tonunda danışdığını və "özünüzü yığışdırın", "məsuliyyətli olun" kimi ifadələrdən istifadə etdiyini Prezident köməkçisi də vurğulayır. Əli Kərimlinin siyasi gücü göz qabağındadır. Hakimiyyətin resursları və elektoratı ilə müqayisə aparılsa, Əli Kərimlinin heç bir icra başçısı ilə hədə tonunda danışmağa imkanı yetərli deyil. Onda isə niyə Əli Kərimli bütün hakimiyyəti hədəf alaraq hədə ritorikasına üstünlük verir, bununla nə əldə etməyi düşünür?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov baki-xeber.com-a bildirdi ki, ənənəvi müxalifətin nəyə qadir olduğu ortadadır: "Biz həm hakimiyyət, həm də ənənəvi müxalifətlə bərabər məsafədə dayanan siyasi qüvvəyik. Kimlərsə sanki müxalifət brendini özününküləşdirmiş kimi davranır. Sanki onlara elə bu lazımdır. Ənənəvi müxalifət daxilində mübarizənin daha çox bu müstəvidə getdiyinin şahidi oluruq. Fikir verin, özlərini daha güclü müxalif qüvvə sayanların haması arasında didişmə gedir. Maraqlıdır ki, onlar birləşib bu gücü hakimiyyətə göstərə bilmirlər. Müxalifliyin də bir fəlsəfəsi, qaydaları olmalıdır. Nə qədər güclü hakimiyyət olursa-olsun sən 30 ildir irəliləyə bilmirsənsə, zəifliyini etiraf edib, siyasi səhnəni başqalarına güzəştə getməlisən. Onların əsas bəhanəsi bu idi ki, hakimiyyət təbliğat imkanlarını məhdudlaşdırıb. İndi baxın, sizə virtual məkanı verib. Həmınız ordasınız, bütün internet televiziyalara, səhifələrə çıxışınız var. Neçə ildir bu platformadan sağına-soluna istifadə edirsiniz. Niyə nəticə yoxdur? Məhz bütün bu nəticəsizliyi, uğursuzluğu ört-basdır etmək üçün radikal liderlər, bir bəhanə tapıb, hakimiyyəti daha sərt tənqid etmə yolunu tuturlar. Onlar arasında sanki kim daha radikal formada hakimiyyəti tənqid edə bilirsə, o ana müxalifət sayılır kimi bir lüzumsuz yarış da gedir. Hesab edirəm ki, Əli Kərimlinin son ritorikası da məhz bundan qaynaqlanır. Burada başqa səbəb görmürəm. Hakimiyyəti sözdə hədələməklə iş keçmir. Bunun üçün müxalif liderin arxasında güc olmalıdır. Hələlik isə bizim heç bir müxalifət partiyasının arxasında deyilən qüvvə yoxdur".

*Məhəmmədəli QƏRİBLİ*

# Paşinyan Qarabağ həll prosesini uzatmaq üçün yeni bəhanə tapıb - "icazə verin biz də iqtisadi olaraq inkişaf edək, sonra..."

**Ermənistanın Baş naziri Nikol Paşinyan bir-birini təkzib edən, mənasız bəyanatlarını səsləndirməkdə davam edir. Onun son bir ildə səsləndirdiyi bəyanatların hamısının məğzində sülh prosesindən yayınma, danışıqlar prosesinə xələl gətirmə kimi mətləblər durur.**



***Nəzakət Məmmədova:*** *"O, vaxt udmağın şəxsən özü, iqtidarı və onu hakimiyyətə gətirən güclər üçün ən uyğun variant olduğunu düşünərək belə fikirlər səsləndirir"*

Bundan əvvəl Paşinyan Xankəndidə çıxışı zamanı "Qarabağ Ermənistandır, nöqtə" demişdi və Ermənistanın 2050-ci ilə qədər elə inkişaf hədəflərini açıqlamışdı ki, hətta öz tərəfdarları belə ona inanmamışdı. Bura Ermənistan əhalisinin 4 milyon nəfərə çatdırılması, maaşların, ÜDM-in, səhiyyə və hərbi xərclərin 10 dəfəyədək artırılması kimi utopik məqsədlər daxil idi.

Bir neçə gün əvvəl isə o, Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibindən çıxmasını Azərbaycan SSR-in SSRİ-nin tərkibindən çıxması ilə müqayisə etmişdi.

İndi isə Paşinyan Fransada nəşr edilən jurnala verdiyi müsahibədə deyir ki, Dağlıq Qarabağ münaqişəsinin həlli təkcə hərbi və ya diplomatik müstəvidə mümkün deyil. "Bizdə münaqişə var və o nizamlanmayıb. Əgər biz xalqıqsa və strateji düşüncəyə malikiksə, hansı ki, mən buna əminəm, o zaman biz məsələni qısa müddətdə, bir neçə günə həll edə bilmərik. Qarabağ məsələsinin həlli üçün ölkənin potensialının konsolidasiyası lazımdır. İlk növbədə zəruridir ki, Ermənistan iqtisadiyyatı və cəmiyyəti rəqabətqabiliyyətli olsun, daimi inkişaf yoluna çıxsın".

Onun sözlərinə görə, məsələnin həlli üçün geniş kombinasiya lazımdır, bunun mərkəzində isə rəqabətqabiliyyətli iqtisadyyat, güclü cəmiyyət və yüksək texnologiyalar dayanmalıdır:

"İdeya bundan ibarətdir ki, bizim mümkün rəqiblərimizə bunu nümayiş etdirək: xalq olaraq biz o qədər birik və cəmiyyət olaraq o qədər səfərbər olunmuşuq ki, dövlət kimi o qədər güclüyük ki, bizimlə döyüşmək mənasızdır, çünki bunun yeganə nəticəsi məğlubiyyət olacaq".

Bəllidir ki, Paşinyanın bu fikirləri açıq şəkildə münaqişənin ömrünü uzatmağa xidmət edir. Paşinyan bununla demək istəyir ki, onlar hələ işğal prosesini davam etdirməyi düşünürlər. Məlumdur ki, məhz bu siyasətinə görə Ermənistan uzun illərdir iqtisadi blokada şəklində yaşayır. İndi isə Paşinyan iqtisadiyyatın maksimum dirçəldilməsini zəruri sayır ki, işğal səbəbindən düçar olduqları uzunmüddətli blokadaya tab gətirə bilsinlər. Paşinyanın son fikirlərindən başqa hansı nəticələri çıxarmaq olar?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistan Baş naziri Nikol Paşinyanın səsləndirdiyi bu fikirlər ölkəsinin müharibəyə hazır olmadığını dərk edərək vaxt udmağa çalışdığını sübut edir: "Təbii ki, Paşinyan müharibədən qorxur və çəkinir. Paşinyan və komandası indi Ermənistanın gücsüz və zəif olduğunun fərqindədir. Müharibənin başlayacağı təqdirdə uduzacaqlarını da təbii ki, gözəl anlayırlar. Ermənistan-Azərbaycan müharibəsinin başlayacağı təqdirdə Ermənistanın məğlubiyyəti qaçılmazdır. Paşinyan daha çox vaxt udmağa, investisiyalar cəlb etmək yolu ilə ölkəsini gücləndirməyə çalışır. Müharibə onun və komandasının sonunu gətirəcək ən pis ssenaridir. Bunun bir sıra səbəbləri var: qeyd etdiyimiz kimi, Ermənistan bütün kriteriyalar üzrə Azərbaycandan müqayisəolunmaz dərəcədə geridə qalır. Müharibə başlayacağı təqdirdə Ermənistan məğlub olacaq və əleyhdarları dərhal bu amildən onun əleyhinə istifadə edərək, xalq kütlələrini istefa şüarları səsləndirmək üçün küçəyə tökəcəklər. Ermənistanda indiyədək bütün iqtidarlar hakimiyyətə Qarabağ kartı üzərində gəlib və gedib. Ona görə də Paşinyan bu təhlükəli amili özündən mümkün qədər uzaq tutub Qarabağ məsələsindən kənar qalmaq istəyir".

Politoloqun sözlərinə görə, Paşinyan ordu üzərində heç bir səlahiyyətə malik deyil: "Müharibə başlasa, Rusiyanın nəzarətində olan ordudakı müəyyən güclər bir neçə rayonu Azərbaycana təhvil verib Paşinyanı pis vəziyyətdə qoymağa çalışacaqlar.

Ermənistanın istənilən məğlubiyyətinin məsuliyyəti Paşinyanın üzərinə düşür. Odur ki, o, bu təhlükəli oyundan uzaq durmağa çalışır, Qarabağ münaqişəsində indiki status-kvonun saxlanmasında maraqlıdır. Hazırda Ermənistanda böyük güclərin oyununda Qarabağ məsələsi, sadəcə, bir vasitədir, əsas məsələ hansı böyük gücün bu ölkəni öz nüfuz dairəsinə çevirə bilməsidir. Ona görə də Paşinyan vaxt udub rəqiblərinə fürsət vermək istəmir. Məğlub olacağını bilə-bilə döyüşə girməyin ağılsızlıq olduğunu dərk etdiyi üçün, o, vaxt udmağın şəxsən özü, iqtidarı və onu hakimiyyətə gətirən güclər üçün ən uyğun variant olduğunu düşünərək belə fikirlər səsləndirir".

***Məhəmmədəli QƏRİBLİ***

# Əli Kərimlinin hansı cəsarətlə hakimiyyəti hədələdiyi açılır - kartı İnqilab Kərimov açdı

**Son vaxtlar hakimiyyətə qarşı radikal mövqeyi ilə tanınan Əli Kərimlinin rəhbərlik etdiyi AXCP daha ifrat şəkildə radikallıq nümayiş etdirməyə start verib. Hətta vəziyyət o həddə çatıb ki, partiya funksionerləri dünyanın heç bir ölkəsi tərəfindən qəbul edilməyən, İslam aləmi tərəfindən belə lənətlənən İŞİD kimi terrorçu təşkilata simpatiyalarını açıq ifadə etməkdən çəkinmirlər.**



AXCP fəalları sözügedən radikal təşkilatı Azərbaycana dəvət edir, onların ölkəmizdə "kəsəcəyi başlar"la bağlı əməllərini təqdir edirlər. Bu fikirləri konkret fakta söykənərək bəyan edirik.

Siyasi mühacir adı ilə Fransaya sığınan, AXCP-nin ən fəal üzvlərindən sayılan və ən əsası, Əli Kərimlinin doğma əmioğlusu olan İnqlab Kərimovun öz Facebook hesabında yazdığı statusa diqqət edək:

"İŞİD heç də hər adamın başını kəsmir...İŞİD 5 manata sifarişlə məhkəmə zalını dolduranların başını kəsir…İŞİD adını dindar qoyub, cindarlıqla məşğul olanların başını kəsir…. İŞİD adını müxalifət qoyub, nazirliklərə dal qapıdan girib-çıxanların başını kəsir...Və düşünürəm ki, düz də edir…Azərbaycana XOŞ gəlirsən, İŞİD..."

Göründüyü kimi, İnqlab Kərimov İŞİD-in Azərbaycana "gəlişini" alqışlayır, hətta onlara kimlərin başını kəsməklə bağlı konkret ünvanlar da göstərir. İnqlab Kərimov partiyada rəhbər post tutmasa da, sıradan biri də deyil. Hələ ölkədə olarkən onun adı Əli Kərimlinin əsas maliyyə qaynağı kimi çəkilirdi. Xaricə mühacirət etdikdən sonra da fəal AXCP-çi kimi çıxış edir. Dəfələrlə söyüş ritorikasını özündə əks etdirən mövqe ortaya qoyub. Partiyanın ianə toplamaqla bağlı marafonlarının təşkilatçısı qismində çıxış edir. Yeni müşahidələrimiz onu deməyə əsas verir ki, Əli Kərimli İnqilab Kərimovdan imtina edə bilməz. İŞİD-lə bağlı yazılan postu İnqilab Kərimovun mövqeyinin partiya tərəfindən də dəstəkləndiyi qənaətini yaradır. Çünki şəxsiyyəti bəlli olan bir çox AXCP fəali terroru dəstəkləməklə bağlı ortaya qoyulan mövqeyə onu təqdir edən "like" işarəsini qoyub. Bəllidir ki, AXCP sədrinin İnqilab Kərimovun məlum statusundan məlumatı var. Elə isə niyə həmin postun silinməsi ilə bağlı göstəriş verməyib? Bu nəticəyə gəlinir ki, həmin mövqe birbaşa İnqilab Əli Kərimlinin özü tərəfindən də dəstəklənir. Bizim üçün bu o qədər də qəribə görünmür. Çünki Əli Kərimli radikal dindarlarla çoxdandır siyasi izdivac içərisindədir. Təsadüfi deyil ki, radikal dindar kimi tanınan Taleh Bağırzadə və onun tərəfdarlarının alovlu müdafiəçisi qismində çıxış edir. İŞİD-ə bəslənən sipmatiya isə yeni xəttidir. Belə nəticəyə gəlmək olur ki, Əli Kərimli və onun tərəfdarları hakimiyyətə qarşı mübarizədə hətta şeytanla belə əməkdaşlıq etməyə hazırdırlar. Ən maraqlısı isə budur ki, İnqilab Kərimov bu fikirləri özünü demokratiyanın beşiyi sayan Fransadan səsləndirir. O ölkədən ki, dəfələrlə İŞİD-in terror əməllərindən zərər çəkib. Məhz həmin fikirlərə görə Fransanın əlaqədar qurumlarının əlində İnqilab Kərimovun məsuliyyətə cəlb edilməsi üçün tam hüquqi əsaslar var. Ortada terroru dəstəkləmə və terrora çağrış kimi açıq mövqe var. Yaxşı olardı, Əli Kərimlinin özü bu məsələyə münasibət bildirsin. Necə ola bilir ki, hakimiyyətlə heç bir rəsmi bağlantısı olmayan bir gənclə AXCP fəalları arasında yaranmış fikir ayrılığını həmin gəncin əlində bir ov silahının olmasını əsas götürərək hakimiyyətin siyasi partiyaya qarşı terror hazırlığı kimi qələmə verir, amma bu məsələdə susur? Hər halda, İŞİD-i Azərbaycana dəvət etməklə həmin əməlin təhlükəlilik dərəcəsi müqayisə oluna bilməz. Yəqin ki, Əli Kərimlinin son vaxtlar hakimiyyətlə hədə dilində danışmasının kökündə duran amillərdən biri də məhz radikal dindar qruplarından aldığı dəstək və onlarla əməkdaşlığa hazır olması ilə bağlıdır. Əli Kərimli ilə yaxından əməkdaşlıq edən Qərbin müəyyən dairələri xüsusilə bu mövqe ilə tanış olmalıdır. Qoy görsünlər ki, dəstəklədikləri AXCP Azərbaycandakı dünyəvi quruluşu hansı dövlət forması ilə əvəz etməyə hazırlaşır, siyasi rəqibləri ilə necə haqq-hesab çürütməyi təqdir edir...

***Məhəmmədəli QƏRİBLİ***

**Rusiya Prezidenti Vladimir Putin Ermənistanın hazırda həbsdə olan eks-prezidenti Robert Köçəryana 65 illik yubileyi münasibətilə təbrik məktubu göndərib. Məktub Kremlin rəsmi saytında dərc olunub.**



# Köçəryanın Qafqazda sülh və təhlükəsizliyə töhfə verməsi barədə fikir böyük etiraz doğurdu...

## *Hatəm Cabbarlı: "Köçəryandan çox sülhə, təhlükəsizliyə zərər vuran adam olmayıb"*

Putin Köçəryanın İrəvanla Moskva arasında "müttəfiqlik münasibətlərinin möhkəmlənməsindəki ciddi rolunu" qeyd edir: "Hörmətli Robert Sedrakoviç, 65 illiyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin. Öz çoxillik dövlətçilik fəaliyyətinizlə Siz həmvətənləriniz arasında və xaricdə hörmət qazanmısınız, müasir Ermənistanın inkişafına, Zaqafqaziyada təhlükəsizliyin və stabilliyin təmin olunmasına əhəmiyyətli töhfə vermisiniz".

Putin habelə Köçəryana "möhkəm cansağlığı və dözüm" də arzulayır.

R.Köçəryan Azərbaycan ərazilərinin işğalına başçılıq edənlərdən və azərbaycanlılara qarşı hərbi cinayətlər törədənlərdən biridir. Hazırda o, 2008-ci il 1 mart hadisələrinə görə mühakimə olunur, dövlət quruluşunu zorla dəyişdirmək cəhdi, dinc nümayişçilərə qarşı silah işlədilməsinə əmr vermək kimi ağır cinayətlərdə ittiham olunur. Köçəryan Dağlıq Qarabağda baş qaldıran separatizmə rəhbərlik edən şəxslərdən biri olub. Əlində silah, səhra komandiri kimi, müharibədə iştirak edib. Faktiki olaraq, Cənubi Qafqazda yeni münaqişə ocağının yaranmasında Köçəryanın müstəsna xidmətləri olub. Belə olan təqdirdə, ona "Zaqafqaziyada təhlükəsizliyin və stabilliyin təmin olunmasına əhəmiyyətli töhfə vermisiniz" epitetini yaraşdırmaq olarmı?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə bildirdi ki, Rusiya Prezidenti Vladimir Putinin Ermənistanın sabiq rəhbəri, hazırda həbsdə olan R.Köçəryana göndərdiyi təbrik və həmin təbrik mətnində ona ünvanladığı ifadələr olduqca maraqlıdır: "İstər Cənubu Qafqazda sülhə və təhlükəsizliyə onun verdiyi fayda, Ermənistan-Rusiya münasibətlərinin yaxşılaşdırılmasında onun oynadığı rolla bağlı deyilənlərə birmənalı yanaşmaq olmaz. Məktub həm də Ermənistan-Rusiya münasibətlərində Paşinyana qədər olan dönəmi və ondan sonrakı zamanı dəyərləndirmək baxımından yaxşı vasitə sayıla bilər. Bu, birinci dəfə deyil ki, Rusiya rəhbəri həbsdəki Köçəryana təbrik ünvanlayır. Belə vurğulama göstərir ki, Ermənistan Rusiyanın vassalı olub və olmaqda davam edir. Xüsusilə də imperiyanın Qafqaz siyasətinin həyata keçirilməsi baxımından bir mexanizm rolunu oynayıb. Bu həm də onu deməyə əsas verir ki, mövcud Ermənistan hakimiyyəti ilə Rusiya rəhbərliyi arasında ixtilaf var və münasibətlər sərindir. Bunu Paşinyan hakimiyyətinə bir təzyiq metodu kimi də dəyərləndirmək olar. Artıq hiss edilir ki, Rusiya Ermənistanın daxilində gedən proseslərlə razı deyil. Xüsusilə də Ermənistanın yeni rəhbərliyi islahatlara başladıqları ilə bağlı bir anons verdikləri ərəfədə belə addımın atılması Ermənistanda daxili gərginliyin artacağına dəlalət edir. Rusiya Köçəryanı əvvəldən müdafiə edir. Hətta Rusiyanın həmin ölkədəki səfiri gedib onun məsələsini Konstitusiya Məhkəməsinin hakimi ilə şəxsən müzakirə edirdi. Ancaq məktubda Köçəryanın Cənubu Qafqazdakı sülhə və təhlükəsizliyə böyük töhfə verən adam kimi xarakterizə olunması isə, ümumiyyətlə, qəbul edilən deyil. Çünki Köçəryan Azərbaycana qarşı həyata keçirilən qanlı hərbi əməliyyatların, işğalın başında durub. Özü əlində silah vuruşub. Belə bir adam necə sülhə töhfə verə bilər? Ola bilər ki, onun hərbi sahədəki addımları Rusiyanı tam qane edib və edir. Bu başqa məsələdir. Ona görə də hər detalı öz adı ilə çağırmaq gərəkdir. Əksinə, Köçəryandan çox sülhə, təhlükəsizliyə zərər vuran adam olmayıb".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Qondarma "DQR"in "prezidenti" Bako Saakyan Leonid Azqaldyana ölümündən sonra "Artsaxın qəhrəmanı" fəxri adını verib. Həmin şəxs "Miatsum" şüarını səsləndirən ilk şəxs kimi tanınır. Səhra komadiri kimi döyüşlərdə iştirak edib və 1992-ci ildə ölüb. Ermənistan mətbuatının özü də Saakyanın bu addımını birmənalı qarşılamır.**



# "DQR" "prezidenti" "Miatsum"un əsl müəllifinə "qəhrəman" adı verməklə Paşinyanın 5 avqust çıxışını vurdu

## *Yeganə Hacıyeva: "Xüsusilə də gənc nəslin yadına saldı ki, həmin şüarla bağlı Paşinyan qəhrəmanlıq etməyib, əsl plagiata yol verib"*

Xüsusilə də qeyd edilir ki, onun bu addımı məhz "prezidentlik" dönəminin sonunda və Azqaldyanın ölümündən 27 il keçəndən sonra atması maraqlı və təəccüblü görünməyə bilməz.

Xatırladaq ki, həmin şüarı Ermənistan rəhbərlərindən ilk dəfə Nikol Paşinyan Xankəndidə keçirilən 5 avqust mitinqində səsləndirib. Hətta erməni KİV-i də ehtimal edir ki, Saakyanın Azqaldyanı "qəhrəman" etməsinin kökündə də "Qarabağ klanı" ilə Paşinyanın arasında olan ziddiyyət dayanır. Çünki Paşinyan həmin bəyanatı verməklə Ermənistandakı və Dağlıq Qarabağdakı millətçi ermənilərin dəstəyini qazanmağı hədəf seçib. Ancaq Saakyan şüarın əsl müəllifini göstərməklə, Paşinyanın çıxışının elə də böyük əhəmiyyət kəsb etmədiyini nəzərə çatdırıb. Gəlinən bu qənaəti nə dərəcədə əsaslı saymaq olar?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanın Baş naziri Nikol Paşinyan işğal altındakı Azərbaycan ərazilərində səsləndirdiyi "Miatsum" şüarı ilə özünü pis vəziyyətə salmış oldu: "Beynəlxalq aləm üçün həmin şüarın səsləndirilməsi bir vacib faktı aydınlaşdırmış oldu. Sübut edildi ki, Paşinyan həqiqətən siyasi diletantdır. Hətta ondan radikal mövqedə olan, Qarabağdakı hərbi əməliyyatlarda birbaşa iştirak etmiş prezidentləri belə bir şüarı səsləndirməmişdi. Bununla Paşinyan işğala dəstək verdiyini, danışıqların onunla aparılmasının mənasız olduğunu sübut etdi. Yəni beynəlxalq aləmdə özünü ikiüzlü siyasətçi kimi tanıtdı. Bir tərəfdən danışıqlara gedir, digər tərəfdən isə prosesin tamamilə ziddinə olan bir şüar səsləndirir. Hətta vəziyyət o həddə çatdı ki, Ermənistan Xarici İşlər Nazirliyi Paşinyanın sərsəm bəyanatını malalamağa çalışdı.

İrəvan iddia edir ki, Baş nazirin fikirləri, sadəcə, Dağlıq Qarabağın təhlükəsizliyinə qarant rolunu oynayır. Amma fakt budur ki, N.Paşinyan "Dağlıq Qarabağ Ermənistandır, nöqtə" deməklə faktiki olaraq xəstə "Miatsum" xülyasını dəstəkləyərək, danışıqların üzərindən qara xətt çəkmiş oldu. Azərbaycanın Prezident Administrasiyası, XİN-i və Dağlıq Qarabağın Azərbaycanlı İcmasının rəhbərliyi bəyanatlarında Ermənistanın hökumət başçısının savaşı tətikləyən mövqeyini kəskin tənqid etməklə yanaşı, beynəlxalq aləmi real durumla bağlı xəbərdar etməyə çalışdılar. Görünür, Paşinyan geri döndən sonra bəyanatlarının "bant"ını çox elədiyinin fərqində olub və təcili düzəliş etməyə qərar verib. Yeri gəlmişkən, N.Paşinyan hakimiyyətinin ilk günlərində onunla bağlı fərqli yanaşmalar var idi. Hesab olunurdu ki, Sarkisyan-Köçəryan cütlüyündən fərqli olaraq, Nikol müharibə partiyasının üzvü olmadığı üçün konstruktiv mövqe tutacaq və danışıqlarda effektli nəticənin əldə olunmasına səy göstərəcək. Ancaq yeni hökumət başçısının mövqeyi bir çox hallarda radikallıq baxımından sələflərindən çox uzağa getdi. Faktiki olaraq, Paşinyanın "Miatsum" şüarı özünə beynəlxalq dəstək qazanmadı, Ermənistanın mövqeyini xeyli zəiflətdi. Belə olan təqdirdə Paşinyan milliyyətçi kəsimin arasında itirilən nüfuzu bərpa etmək istədi. Sanki şüarın ona məxsus olduğu və Ermənistanın ilk rəhbəri kimi belə cəsarətdə olduğu ilə fəxr edirdi. Bako Saakyan bunun da üstündən xətt çəkdi. Xüsusilə də gənc nəslin yadına saldı ki, həmin şüarla bağlı Paşinyan qəhrəmanlıq etməyib, əsl plagiata yol verib".

***Məhəmmədəli QƏRİBLİ***

# Polşada İkinci Dünya Müharibəsi Konfransı Paşinyanı rüsvay etdi - Putin getmədisə...

**Ermənistanın mövcud xarici siyasətində özünü gülünc duruma salması, başqalarının iradləsi ilə hərəkət edən dövlət olması yeni faktlar timsalında getdikcə daha əyani şəkildə təsdiqini tapır. Xüsüsən də son dövrlərdə Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiyaya yarınmaq üçün etdiyi cəhdlərə Moskvada məhəl qoyulmaması İrəvanı məsxərə obyektinə çevirib.**

Bu arada xatırladaq ki, Rusiya prezidenti Vladimir Putin hazırda həbsdə olan Ermənistanın sabiq dövlət başçısı Robert Köçəryanı 65 illik yubileyi münasibətilə təbrik edib. Təbrik məktubu Rusiya prezidentinin rəsmi saytında da yerləşdirilib. Məktubda Köçəryanın Ermənistanın inkişafına, "Cənubi Qafqazda təhlükəsizliyin və sabitliyin möhkəmlənməsinə töhfə verdiyi" qeyd edilib. Ermənistanın sabiq prezidentinin Rusiya ilə əlaqələrin genişlənməsinə də töhfəsini vurğulayan Putin ona dözüm arzulayıb. Bundan əvvəl də Patin Köçəryana məktub ünvanlamışdı. Paşinyanın narazılığa rəğmən Putinin ikinci dəfə Köçəryana məktub ünvanlaması isə Ermənistanın baş nazirinə Kremlin saymazyana münasibətinin göstəricisi sayılır. Özü də bütün bunlar o fonda baş verir ki, Paşinyan Rusiyadan gələn göstərişləri can-başla yerinə yetirir. Məsələn, məhz Rusiyanın istəyi ilə Ermənistan rəhbərliyi İkinci Dünya müharibəsinin başlanmasının 80 illiyinə həsr edilmiş tədbirlərdə iştirak etməkdən imtina edib. Erməni mediası yazır ki, bu, ölkənin beynəlxalq nüfuzuna ciddi bir zərbədir.

Ermənistanın Polşada keçirilmiş İkinci Dünya müharibəsinin başlanmasının 80 illiyinə həsr edilmiş tədbirlərdə iştirak etməməsinin əsas səbəbi isə tədbirə SSRİ-nin varisi hesab olunan Rusiya liderinin dəvət edilməməsi olub. Bundan sonra məlumat yayılıb ki, Kreml Paşinyana tədbirə getməyi qadağan edib. Erməni mediası yazır ki, İrəvanın bu qərarını onun beynəlxalq nüfuzuna sillə kimi qiymətləndirmək olar:"Siyasi baxımdan Ermənistan bununla növbəti dəfə sivil dünyadan uzaqlaşmaq istiqamətində getdikcə daha çox addımlar atmağa başlayır. Bu addımla "suverenliyi" və daxili xarici siyasətin prioritetləri məsələsini nümayiş etdirdiyinə gəldikdə isə, bunun bir qəpik belə dəyəri yoxdur. Bu, Ermənistanı sivil dünyanın gözündə daha da gülünc vəziyyətə salır". Polşalı politoloq Tomaş Matselçuk da bildirir ki, Nikol Paşinyan Polşada İkinci Dünya müharibəsinin başlanmasına həsr edilmiş mərasimə getməkdən Rusiya prezidenti Vladimir Putinin həmin tədbirə dəvət edilməməsinə görə imtina edib: "Təəssüf ki, Paşinyan Varşavanın dəvətini qəbul etməyib və ehtimal olunur ki, o, Polşanın anneksiyası, Reyx və SSRİ tərəfindən həyata keçirilən polyakların soyqırımı ilə bağlı öz fikrini bildirməyəcək. Paşinyan, sən kim olmaq istəyirsən, ikinci Lukaşenko?". Respublika Partiyasının sədr müavini Armen Aşotyan bildirir ki, Nikol Paşinyanın fərdi və siyasi baxımdan ən zəif yeri xarici siyasətdir. Onun sözlərinə görə, Paşinyan düşdüyü biabırçı vəziyyətdən xilas olmaq üçün hər yola əl atır: "Həftələr sonra indiki hakimiyyətin, xüsusilə xarici siyasət sahəsində eyni şeyi deməyə və dediyimi yeni-yeni nümunələrlə bəzəməyə fürsət verdiyinə dair fikrimi təsdiqləyirəm. Nikol Paşinyanın fərdi və siyasi baxımdan ən zəif yeri xarici siyasətdir. Bu insanlar bu günədək, hakimiyyət dövrünün bir il yarım keçməsindən sonra, öz sözləri ilə desək, inqilab hesabına xarici aləmə Ermənistanın dövlət maraqlarını sata biləcəklərini fikirləşirlər. Səfirlərin son toplanışı zamanı Paşinyan bu baxımdan biabırçı vəziyyətə düşüb. Bununla da xarici siyasəti bacarmadığını bir daha nümayiş etdirib".

Aşotyan Ermənistanda xarici siyasət sahəsində inqilabın kapitallaşdırılmasına nail olmağın mümkün olmadığını və bundan sonra da olmayacağını diqqətə çatdırıb:"Sən Ermənistanda demokratik inqilab həyata keçirmisənsə, deməli, bundan sonra erməni əhalini heç bir təhlükə gözləmədiyini fikirləşmək uşaqlıqdır. Qarabağ münaqişəsinin nizamlanmasından başlamış Ermənistan-Rusiya münasibətlərinə, ABŞ və Avropa İttifaqı, İran və Çin istiqamətlərində bu hökumətin heç bir nailiyyəti yoxdur. Rusiya-Ermənistan münasibətlərində hər həftə aydın nəzərəçarpan yeni qırışlar yetişir. Hökumətimizin qazandığı uğurlara gəldikdə, hətta hakim partiyaya dəstək verən partiyaların rəhbərləri belə, xarici siyasətin əsas uğurlarının əvvəlki hakimiyyətə aid olduğunun özünü açıq büruzə verdiyini söyləyir. Bu günlərdə bunu parlamentdə bir daha eşitdik". Rus mətbuatında Paşinyanın Polşada baş tutan beynəlxalq forumda öz iştirakını Rusiya prezidenti Vladimir Putinin lehinə təsdiq etməməsi ilə bağlı məqalələrin dərc olunmasına münasibət bildirərkən o belə deyib: "Erməni tərəfinin ilk vaxtlarda öz iştirakını təsdiq etdiyinə əminsiniz, elə deyilmi? Əvvəlcədən iştirak etmə barədə məlumat təsdiqlənməsəydi, bu konfransın rəsmi saytında Ermənistan baş nazirinin adı qeyd edilməzdi. Ola bilər ki, Paşinyan daha sonra Moskvadan sarı



kartın kənarını görüb və peşman olub. Bu məsələni tam Polşa forumunun özü ilə əlaqələndirmirəm. İndiki hakimiyyət hesablama belə apara bilmir. Əlbəttə, Ermənistan həmişə öz strateji müttəfiqliyini və əksinə olan fəaliyyətini Rusiya ilə aparmalıdır. Bu şübhəsizdir, lakin bu hökumət hesablama aparmağı bacarmır. Polşaya səfər məsələsində, əminəm ki, ilkin razılaşma olub, daha sonra peşman olublar. Üstəlik deyim ki, Paşinyanın administrasiyasından hətta jurnalistlərə zəng edərək, tədbiri işıqlandırmaq üçün kimlərin gedəcəyini dəqiqləşdiriblər.

Yəni baş nazir Polşaya getmək istəyirdi. Bu barədə, ən azı, onlarla jurnalist bilir". Amma bütün bunlara rəğmən, Rusiyanın qadağasından sonra İrəvanın geri çəkilməsi Paşinyanın müstəqil siyasət yürütməkdən çox uzaq olduğunu bir daha təsdiq edir. Erməni mediası yazır ki, bu vəziyyətdə Qərb dövlətləri İrəvanla daha çox məsafə saxlamağa çalışacaqlar. Belə vəziyyətdə Rusiyadan daha çox asılı vəziyyətə düşən Ermənistana Moskvanın təzyiqlərinin artması açılmaz sayılır. Çünki Kreml hələ də Ermənistanda yeni hakimiyyət görmək istəyir və Paşinyana qətiyyən etimad bəsləmir.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Paşinyanın "heç vaxt anti-İran mövqe tutmayacağıq" bəyanatı Qarabağ münaqişəsinin həllinə yeni atmosfer gətirir...

**Ermənistan baş naziri Nikol Paşinyanın bu ayın ikinci yarısında ABŞ-a planlaşdırılan səfərinin növbəti fiasko ilə nəticələnməsi proqnozlaşdırılır. Eyni zamanda hadisələrin inkişaf axarı bu qənaətə gəlməyə əsas verir ki, qarşıdakı dövr ərzində ABŞ İrəvana qarşı sərt mövqe tutaraq onu ciddi təziyq altında saxlayacaq. Bu isə, öz növbəsində, Vaşinqtonun Dağlıq Qarabağ münaqişəsi ilə bağlı siyasətinə də təsirsiz ötüşməyəcək.**

Bunu ABŞ məsələləri üzrə ekspert Suren Sarkisyan da təsdiq edir.

Sarkisyan hesab edir ki, Paşinyanın ABŞ səfəri İrəvan üçün müsbət nəsə vəd etmir. Onun sözlərinə görə, Paşinyanın yerli erməni icması ilə görüşü nəzərdə tutulub və prezident Donald Trampla görüşü mürəkkəb məsələdir: "Baş nazirin Los Ancelesə səfəri işgüzar xarakter daşıyır, o burada yerli erməni icması ilə görüş keçirəcək. ABŞ prezidenti Donald Tramp tərəfindən isə Paşinyan qəbul edilməyəcək. Hərçənd o, buna çox çalışır, amma nəticə yoxdur, ABŞ rəsmiləri yüksək səviyyədə Ermənistandan kimsəni qəbul etmir. Elə bu hal bir neçə gün əvvəl səfirlərin Ermənistandakı toplantısı zamanı da əsas müzakirə predmetlərindən biri olub. Burada qeyri-müəyyən şikayətlər səslənib, lakin iştirakçıların təəssüratı ilə baş nazirin qəzəbi əsasən ABŞ-dakı Ermənistan səfiri Varujan Nersisyana yönəlib, əsas səbəb isə ABŞ-ın ali rəhbərliyi, xüsusilə də ABŞ prezidenti və ya dövlət katibi ilə Paşinyanın görüşünə nail olunmamasıdır". Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan isə daha öncə bildirib ki, Ermənistan və ABŞ arasında dialoq fəallaşıb. Lakin o, indiyədək ölkə rəhbərləri arasında görüşün niyə baş tutmaması məsələsinə dəqiq aydınlıq gətirməyib:"Tramp və Pompeo ilə bizim görüşümüz baş tutmayıb. ABŞ-da öz mürəkkəbliyi ilə seçilən özəl sistem var. Tramp və Pompeo ilə görüş gündəlikdədir. Nə vaxt olsa, olacaq". Amma erməni mediası yazır ki, İrəvanın bütün cəhdlərinə rəğmən, ABŞ prezidenti və dövlət katibi ilə görüşün təşkil edilməsinə nail olmaq mümkün olmur.

Bu arada hesab edilir ki, ABŞ-ın, əslində Ermənistana qarşı daha sərt siyasətə başlaması gözlənilir. Buna əsas səbəb isə Ermənistanın İranla bağlı mövqeyidir.

İranın "Donya-ye eqtesad" qəzetinə verdiyi müsahibəsində Nikol Paşinyan ABŞ-ın Tehran siyasətinə qarşı çıxdığını bəyan edib. Ekspertlər isə bildirir ki, bu hal heç də ABŞ tərəfindən müsbət qarşılanmayacaq. Qeyd edək ki, "Donya-ye eqtesad" qəzetinin "İrəvan ABŞ-ın təzyiqi fonunda İranla dostluq naminə nə qədər itkiyə hazırdır" sualına cavabında Nikol Paşinyan deyib: "İran və Ermənistan qarşılıqlı iqtisadi öhdəliklər götürüb. Bu illər ərzində İran və Ermənistan arasında bir neçə ortaq layihə icra olunub. Tehran və İrəvan arasında sanksiyalardan təsirlənməyən müştərək layihələrin icrası hazırda davam edir". Ermənistan baş naziri daha sonra bildirib: "İran şirkətləri çox aktivdir, lakin sanksiyalar onlara mənfi təsir göstərir və onlar bu sanksiyaların təzyiqi altında işləyirlər. Əlbəttə, İran şirkətləri sanksiyaları bəyənmir və inciyirlər, amma dayanmır və işlərini davam etdirirlər. İran və ABŞ-la münasibətlər Ermənistan üçün vacibdir və biz bölgənin həssas mühitində bütün regional və beynəlxalq dostlarımız və tərəfdaşlarımızla işləməyə çalışırıq. İrəvan fərqli ölkələrlə bütün ticarət öhdəliklərinə əməl edir. Bu gün bölgə üçün çətin olan Ermənistanın siyasəti deyil, amma bu gün və sabah fərqli ölkələr qarşısında götürdüyümüz öhdəlikləri yerinə yetirmək siyasətimiz çoxdan mövcuddur. Qeyd etməliyəm ki, Ermənistan heç vaxt anti-İran addımı atmayacaq. Ermənistan regional və ya transregional fərqlər barədə bütün ölkələr, o cümlədən İranla açıq şəkildə danışır. Ermənistan heç vaxt özünün anti-İran kursuna girməsinə imkan verməz. İranla planlarımız çoxdur, amma bu planların mediaya verilməməsinin səbəbi tərəflərin bu layihələr barədə hələ tam razılığa gəlməməsidir. Hazırda İran tərəfi ilə müzakirə etdiyimiz planlar və proqramlar var. Hər dəfə son nəticəyə gəldikdə, bu planları tezliklə icra etməyə səy göstəririk. Hazırda İranla qaz almaq layihələrinin razılaşdırılmasını davam etdiririk. İndi, təəssüf ki, bir müddət təxirə salınmış 3-cü xətt enerji layihəsini həyata keçiririk və onu mümkün olduqca ən qısa müddətdə istifadəyə verməyə çalışırıq. İki ölkənin, o cümlədən Avrasiya İttifaqı platformasında görüləsi çox işləri var. Ümid edirəm ki, prezident Həsən Ruhani mənim dəvətimi qəbul edəcək və Avrasiya İttifaqı platformasında iki ölkənin maraqları üçün vacib olan müxtəlif layihələr həyata keçirə biləcəyik".

Hesab edilir ki, Paşinyanın ABŞ-ın istəklərinin əksinə olaraq İranla işbirliyini genişləndirməsinə ABŞ tərəfindən olduqca sərt reaksiya sərgilənəcək. Xatırladaq ki, İranla əməkdaşlığa görə ABŞ Ticarət Nazirliyi Ermənistandan iki şirkəti - İrəvan Telekommunikasiya Tədqiqat İnstitutunu (YerTTİ) və "Markel" Qapalı Səhmdar Cəmiyyətini (QSC) "qara siyahı"ya salıb. Məlumata görə, YerTTİ məhsulları ABŞ Sənaye və Təhlükəsizlik Bürosunun Ticarət Nəzarəti Siyahısından lazımi lisenziyalar olmadan alıb və təkrar ixrac edib. Bundan başqa, YerTTİ-nin icraçı direktoru və "Markel" QSC-nin prezidenti olan şəxs ABŞ-ın sanksiyaları altında olan İran təşkilatı ilə bizneslə məşğul olur. Amerika hakimiyyət orqanlarının fikrincə, bu şirkətlər milli təhlükəsizliyə və ABŞ xarici siyasətinin maraqlarına zidd hərəkət edir. Bundan əvvəl isə İranın "Mahan Air" aviaşirkətinin İrəvanda ticarət nümayəndəsi sayılan "Flight Travel LLC" adlı Ermənistan şirkəti də ABŞ sanksiyalarına tuş gəlib. Bu şirkət Suriyaya sərnişin və silah daşınmasını təmin edir. İrəvanın İranla işbirliyini genişləndirməsi çərçivəsində isə sanksiyalara məruz qalan erməni şirkətlərinin sayının artması gözlənir. Respublika Partiyasının sədr müavini Armen Aşotyan da qeyd edir ki, Vaşinqtonun İrəvanla bağlı siyasəti getdikcə Ermənistana daha böyük zərbə vuracaq. Onun sözlərinə görə, ABŞ-ın hazırkı prezidenti Donald Trampın rəhbərliyi altında ABŞ xarici siyasəti maksimal praqmatik olub və demokratiya vurğusu ilə keçmiş yanaşmalar artıq ABŞ-ın qlobal siyasətində prioritet deyil: "Bu yaxınlarda Fransa prezidenti Emmanuel Makron bəyanat verib ki, beynəlxalq əlaqələrin fəaliyyət göstərən sistemini yenidən nəzərdən keçirmək lazımdır, çünki demokratiyaya xələl gətirib. Emmanuel Makron eyni zamanda vurğulayıb ki, kapitalizm də pozulub. Rusiya Federasiyasının xarici siyasətində demokratiya heç vaxt əsas amil olmayıb. Üstəlik, Rusiya beynəlxalq arenada "demokratik" kimi brendləşməyə çalışan dövlətə şübhə ilə yanaşıb. ABŞ-ın hazırkı prezidenti Donald Trampın rəhbərliyi altında ABŞ xarici siyasəti maksimal praqmatik olub və demokratiya vurğusu ilə keçmiş yanaşmalar artıq ABŞ-ın qlobal siyasətində prioritet deyil". O sual edib ki, Trampın əlini sıxmağa nail ola bilməyən Paşinyan ondan necə kömək gözləyə bilər: "Beləliklə, Tramp bu ilin iyun ayında Varşavada olarkən və jurnalistlərin suallarını cavablandırarkən söyləyib ki, Polşadakı demokratiya vəziyyəti ilə maraqlanmır. Ermənistanın xarici siyasəti üçün 1 nömrəli cavabdeh şəxs Nikol Paşinyan bu fonda bəyan etdi ki, demokratiya xarici siyasətdə Ermənistanın vizit kartı olmalıdır. İndi sual yaranır: ATƏT-in Minsk Qrupunun üç həmsədr ölkəsinin ümumdünya oyununda bu kimi yanaşmaları varsa, o zaman Ermənistan Qarabağ münaqişəsində "demokratik bayraqla" maksimal ermənipərəst həllə necə çatacaq və iki "erməni dövləti"nin təhlükəsizliyini necə gücləndirəcək? Paşiyana müraciət edirəm: ölkə daxilində hələ də öz tostlarınızı içə və ondan zövq ala bilərsiniz, lakin dövləti təmsil edərkən sərxoşluqdan çıxın". Digər tərəfdən, ABŞ-ın istəklərinin əksinə olaraq, İrəvanın Suriyaya hərbi birləşmə göndərməsini də Vaşinton həzm edə bilmir. Belə vəziyyətdə ilk cavab tədbirlərindən biri kimi ABŞ Ermənistana maliyyə yardımını azaldır. ABŞ-ın Ermənistana ayırdığı maliyyə yardımları 2018-ci ildə 6,8 milyon dollar idisə, cari ildə bu, 6,4 milyon dollar təşkil edib. Qarabağdakı separatçı quruma edilən yardım isə ümumiyyətlə dayandırılır. Bütün bunlar fonunda gözlənir ki, Paşinyanın bu ay ABŞ-a baş tutacaq səfəri, yuxarıda qeyd olunduğu kimi, iflasla nəticələnəcək. Hazırda Ermənistana qarşı daha hansı addımların atılacağını demək olduqca çətindir. Lakin aydındır ki, qeyd edilən məqamlar Ermənistan hakimiyyətinin ABŞ siyasətinin iflasına uğraması deməkdir. Erməni ekspert Akop Badalyan bildirir ki, hadisələrin bu səpkidə inkişafı ABŞ-ın Qarabağ siyasətinin daha böyük sürətlə Azərbaycanın lehinə dəyişməsi anlamına gəlir: "ABŞ-ın inqilabdan sonrakı Ermənistan ümidləri doğrulmadı. Bu səbəbdən ABŞ artıq Ermənistandan məsafə saxlayır. Əvəzində ABŞ-Azərbaycan münasibətləri daha sürətlə inkişaf edir. Deməli, Qarabağ məsələsinə də bu öz təsirini mütləq göstərəcək. İran məsələsi də ABŞ-ın mövqeyinin sərtləşməsində az rol oynamır. Məsələ burasındadır ki, Ermənistanda İranla əməkdaşlıq edən şirkətlər daim olub. Təbii ki, ABŞ-ın bu barədə məlumatı olub.

Lakin İranın təcrid edilən Ermənistan üçün əhəmiyyəti nəzərə alınaraq, məsələyə lokal yanaşılıb. Bu münasibət Ermənistan-ABŞ münasibətlərinin təzahürü, hər hansı şəkildə isə bilavasitə Ermənistana kömək kimi qələmə verilib. Lakin bu gün artıq reallıqlar dəyişib və ABŞ hakimiyyəti İran tərəfi ilə münasibətləri olan erməni şirkətlərini nəzərə alır, onlara sanksiya tətbiq edir və bununla İrəvanı xəbərdar da edir. ABŞ-la bərabər Rusiya daxilində Türkiyə-Azərbaycan lobbisinin təsiri əhatəsində müqavimətin artdığı hiss edilir. Bu hal Ermənistanın regionda mövqeyinə mənfi istiqamətdə daha çox təsir etməyə başlayır". Bütün bunlar artıq Qayqazda yeni geosiyasi durumun yarandığını və belə vəziyyətin Qarabağ məsələsinə də mütləq mənada öz təsirini göstərəcəyini deməyə əsas verir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Repressiya olunmuş 20-30-cu illər kommunistlərinin millətçi fəaliyyəti təsdiqlənir

## *Vaqif Abışov: ”Repressiya olunan Azərbaycan kommunistləri Sovet hakimiyyətinə xidmət etsələr də...”*

**Azərbaycan tarixinin ən ağrılı dövrlərindən biri 1920-30-cu illər Stalin repressiyası illəri olub ki, bu dönəmdə xalqımızın ziyalıları, dövlət xadimləri, fikir adamları kütləvi olaraq qətlə yetiriliblər. 1920-ci illərdən başlayaraq 30 ilə yaxın davam edən repressiya xalqımıza böyük zərbə vurub.**



*”Bu kommunistlər o vaxt Cümhuriyyət liderləri ilə birləşib Azərbaycanı müstəqil dövlət kimi saxlaya bilərdilər, ancaq onlar kürəklərini rus süngüsünə dayayıb irəlilədilər, o süngü də onların qətlinə səbəb oldu”*

Məlum olduğu kimi, bu illərdə Azərbaycan Respublikası ərazisində insan hüquqlarına zidd qanunlar əsasında totalitar dövlət rejiminin törətdiyi özbaşınalıq, zorakılıq nəticəsində yüz minlərlə günahsız insan əsasən milli özünüdərk və milli dövlətçilik əqidəsinə, siyasi rejimin diqtəsinə deyil, milli hissiyyatla düşündüyünə görə repressiyalara məruz qalıb.

Onu da vurğulayaq ki, Stalin repressiyası yalnız milli düşüncələri ilə seçilən, milli məfkurə uğrunda mübarizə aparan insanları deyil, həmçinin, ölkəmizdə bolşevik rejiminin qurulmasında cani-dildən xidmət göstərən "vicdanlı" kommunistlərin də bir çoxunu öz caynağına alıb. Azərbaycanın dövlət müstəqilliyinin beşiyində boğulmasına dəstək olan bu şəxsiyyətlərin əksəriyyətinin də Stalin repressiyası qurbanı olması müxtəlif sullar yaradır.

Tarixçi-alimlər bildirirlər ki, əslində, siyasi hadisə hesab olunan repressiya XX əsrin 20-ci illərindən 50-ci illərin əvvəllərinə qədər davam etsə də, 20-40-ci illərarası baş verən hadisələr amansızlığı ilə xüsusi seçilib. İnsanların "əksinqilabçı", "trotskiçi", "casus", "millətçi", "üsyançı" kimi müxtəlif ittihamlarla kütləvi şəkildə məhv edilməsi Stalin, Beriya və onların ətrafındakıların bütün SSRİ-də həyata keçirdikləri dəhşətli bir siyasət olub. Tarixçilər bildirirlər ki, repressiya illərində SSRİ-də, ümumilikdə, 1575259 adam həbs olunub, bunlardan 173382 nəfəri guya "əksinqilabi" iş apardığına görə cəzaya məruz qalıb, 1344923 nəfər məhkum edilib, 681692 nəfər isə güllələnib.

Tarixçilər onu da bildirirlər ki, repressiya illərində Azərbaycan ərazisindən 100 minə yaxın ziyalı, hərbçi, mədəniyyət və incəsənət xadimi, alim, yazıçı, müəllim, din xadimi Sibirə, Qazaxıstana və digər yerlərə sürgünə göndərilib. Bununla da Azərbaycan cəmiyyətinin ağıllı, elmli, istedadlı, əməksevər, mənəviyyatlı təbəqəsinin çox böyük hissəsi məhv edilib. 20-ci illərdə, birmənalı olaraq, "əksinqilabçı" adı ilə cümhuriyyətçilər, yaxud müsavatçı və ittihadçılar məhv edilir, həbs olunub Solovki adalarına göndərilirdisə, 37-ci il repressiyası bir qədər qarışıq olub. Bu mərhələdə insanlar "xalq düşməni", "pantürkist", "sui-qəsdçi", "panislamist" yarlığı altında məhv edilirdilər. Bu repressiya burulğanında kommunistlər də var idi. Belə ki, hətta Kommunist Partiyasının ən məşhur və vəzifə tutan nümayəndələri belə bu fəlakətdən canını qurtara bilməyib. Mərkəzdə (Moskvada) Siyasi Büro üzvlərinin ailələrinin repressiyası onun səbəb, məqsəd və icra strukturunun mürəkkəbliyini göstərdiyi kimi, siyasi müxtəlifliyindən asılı olmayaraq, heç kəsə güzəşt olunmadığının da bir sübutudur.

Bu gün Azərbaycanın tarixçi-alimləri 1920-30-cu illər Stalin repressiyası ilə bağlı arxivlərdə ciddi işlər görürlər. "Millətçi", "pantürkist", "xalq düşməni" kimi Stalin repressiyasına məruz qalan kommunistlərin fəaliyyətini ciddi şəkildə araşdıran tarixçilər bildirirlər ki, həqiqətən də o dövrdə həmin kommunistlərin millətçilik fəaliyyəti olub. Stalin repressiyası qurbanı olan kommunistlərin böyük əksəriyyəti müəyyən bir dövrdən sonra Lenin və Stalinin onları aldatdıqlarını biliblər, bu səbəbdən də gizlin şəkildə bolşevizmə qarşı mübarizəyə başlayıblar. Bütün bunların arxiv sənədlərində əks olunduğunu deyən tarixçilər qeyd edirlər ki, o dövrdə Azərbaycana rəhbərlik edən bir çox kommunistdə milli təəssübkeşlik hissləri olub. Onu da qeyd edirlər ki, SSRİ-nin ilk illərində Mərkəzi Komitəyə mütəmadi olaraq azərbaycanlı kommunistlərin millətçilik davranışları ilə bağlı şikayətlər göndərilib.

Stalin repressiyası dövrünü araşdıran alimlərdən biri olan Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Vaqif Abışov "Bakı-Xəbər"ə bildirdi ki, həm Ruhulla Axundov, həm Mirzə Davud Hüseynov, həm Qəzənfər Musabəyov, həm Həmid Sultanov, həm Ayna Sultanova, həm də Stalin repressiyasına məruz qalan digər kommunistlərin fəaliyyətində millətçilik örnəkləri olub və onlar bunu gördükləri işlərdə büruzə veriblər. "Bilirsiniz ki, Azərbaycanın repressiya olunan böyük şəxsiyyətləri ilə bağlı arxiv sənədləri əsasında kitablar nəşr edilib. Bu istiqamətdə elmi-tədqiqat işləri davam etdirilir. Mən özüm də bu məsələ ilə bağlı arxivdə işləyirəm, arxivdə kifayət qədər sənəd, material var ki, onlar bizə ətraflı məlumat verir. Repressiya mövzusu bitib tükənmir. Mən arxivdə işləyərkən olduqca dəhşətli materiallarla tanış oluram. Repressiya dövründə bizim görkəmli şəxsiyyətlərimizə çox aşağı səviyyədə münasibət göstərilib, onlara qarşı insanlığa sığmayan davranışlara yol verilib. Xalqımızın düşünən beyinləri, dövləti idarə edən şəxsiyyətləri kütləvi şəkildə repressiyaya olunublar. Onların özlərinin qətlə yetirilməsi bir yana, bütün ailələri, yaxınları da Sibirə və başqa yerlərə sürgün ediliblər. Bu baxımdan, repressiya dalğası elə cövlan edib ki, onu yazmaqla bitməz.

Azərbaycanda bolşevizmin bərqərar olunmasında mühüm rol oynayan, həmin dövrdə müxtəlif yüksək vəzifələr tutan kommunistlər də "pantürkist", "millətçi", "xalq düşməni" adı altında Stalin repressiyasının qurbanı olublar. Ruhulla Axundov, Mirzə Davud Hüseynov, Ayna Sultanova, Həmid Sultanov, Qəzənfər Musabəyov və başqaları Azərbaycanda Sovet hakimiyyətinin qurulmasında fəal olublar. Bu gün onların millətçi, milli məfkurəyə xidmət etməsi ilə bağlı şübhəli fikirlər var. Böyük əksəriyyət onları millətçi olmamaqda, millətin, xalqın mövqeyini müdafiə etməməkdə ittiham edir, lakin belə deyil. Etiraf edim ki, arxiv sənədləri ilə yaxından tanış olarkən qarşıma xeyli məlumat çıxdı. 1920-1938-ci illərdə Azərbaycan Sovet Sosialist Respublikasını idarə edən bu şəxslərdə milli hisslər, milli düşüncə mövcud olub və onlar Azərbaycanı müəyyən qədər müstəqil görmək istəyiblər. Bu şəxslər Azərbaycanın adət-ənənəsini, tarixini inkişaf etdirməyə, Azərbaycan xalqının tanınmış, seçilən, öz dilində danışan, öz mədəniyyətinə sahib olmağı bacaran bir xalq olaraq yüksəlməsinə çalışıblar, lakin Rusiya ilə bir yerdə. Nəriman Nərimanov başda olmaqla, o şəxslər milli düşüncə sahibi olublar. Ancaq 1937-ci ildən 1940-cı ilə qədər həmin kommunistlər də Stalin repressiya maşını tərəfindən məhv edilib. Maraqlıdır ki, Cümhuriyyəti quran, Azərbaycanı tam olaraq müstəqil dövlət kimi tanıtmaq istəyən, bunun uğrunda mübarizə aparan şəxsiyyətlərin məhvinə səbəb olan və Cümhuriyyət hökumətini devirən kommunistlərin özləri də repressiyadan canlarını qurtara bilmədilər. Dediyim kimi, bu insanlarda da milli düşüncə vardı, lakin onlar Azərbaycanı tam müstəqil deyil, SSRİ-nin tərkibində müstəqil görmək istəyirdilər".

V.Abışov qeyd etdi ki, Stalin repressiyasının qurbanı olan kommunistlər Azərbaycanda bir sıra mühüm işlər görüblər. Onun sözlərinə görə, SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının yaradılmasında da bu kommunistlərin təşəbbüsləri olub. "1923-cü ildə savadsızlığın ləğv edilməsində, 1929-cu ildə elmi-tədqiqat institutunun açılmasında, 1935-ci ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının yaradılmasında onlar az rol oynamadılar. Bu elmi sahələrin formalaşdırılmasının, Azərbaycanın tarixinin, arxeologiya və etnoqrafiyasının, folklorunun, ədəbiyyatının, riyaziyyatının ciddi şəkildə öyrənilməsinin və bunun bir elm sahəsi kimi irəliləməsinin başında repressiya olunan kommunistlər dururdu. Bunu etiraf edək. Bu kommunistlər o vaxt Cümhuriyyət liderləri ilə birləşib Azərbaycanı müstəqil dövlət kimi saxlaya bilərdilər, ancaq onlar kürəklərini rus süngüsünə dayayıb irəlilədilər, o süngü də onların qətlinə səbəb oldu. Bu şəxslər aldandıqlarını hiss etdilər. Çünki onlar öz milli ideyalarını həyata keçirmək istəyirdilər, buna isə imkan verilmədi. Sizə açıq deyim ki, Nəriman Nərimanovun özünün üstündən 1956-cı ilə qədər "xalq düşməni" damğası götürülməmişdi. Azərbaycan SSRİ Mərkəzi Komitəsinin plenumunda məsələ qaldırılır ki, Nəriman Nərimanovun və başqalarının üstündən "xalq düşməni", "vətən xaini" damğası götürülsün, İmam Mustafayev də onlara bəraət verilməsini təmin edib. Repressiya olunan Azərbaycan kommunistləri Sovet hakimiyyətinə xidmət etsələr də, onlar milli düşüncədən xali deyildilər" - deyə V.Abışov qeyd etdi.

***İradə SARIYEVA***

# Ucuz Çin məhsullarının Azərbaycana yeni təhlükəli axını başlana bilər - ABŞ-Çin "müharibəsinin" neqativ təsiri...

**Bütün gözləntilərin əksinə olaraq, ABŞ-la Çin arasında ticarət müharibəsinin miqyası genişlənməkdədir. Belə görünür ki, bu ticarət savaşı yaxın tezlikdə dünya iqtisadiyyatına daha əhəmiyyətli dərəcədə təsir göstərməyə başlayacaq. Çünki ABŞ hökumətinin son addımları Çinlə ticarət qarşıdurmasının daha da kəskinləşəcəyini göstərir.**

Belə ki, yayılan məlumatlara görə, Donald Tramp administrasiyası rəsmi Pekindən hələ Çinin imperiya olduğu dövrdə buraxdığı istiqrazlar üzrə borclarını ödəməyi tələb etmək niyyətindədir. Amerika lideri artıq sözügedən istiqraz vərəqələrinin sahibləri ilə görüşüb. Bildirilir ki, bu şəxslər Çindən bu istiqrazlar üzrə borclarını ödəməyi tələb edirlər.

Qeyd edək ki, ötən əsrin ortalarında, yeni ölkədə imperatorların hökmranlıq etdiyi dövrdə Çin dəmir yollarının tikintisinə maliyyə vəsaiti cəlb etmək məqsədilə istiqrazlar buraxıb. Hazırda amerikalı kolleksiyaçıların çox sayda belə istiqrazlara sahib olduğu bildirilir. "Bloomberg" bildirir ki, bu istiqrazları hətta onlayn auksionlarda belə almaq olar. Hesablamalara görə, inflyasiya, faizlər və kompensasiyalar nəzərə alınmaqla sözügedən istiqrazlar üzrə borclar üç trilyon dolları keçir. Çin hökuməti isə inqilabdan əvvəl yaranmış borcları tanımır və onları ödəməkdən imtina edir. İndi bu məsələnin ABŞ tərəfindən gündəmə gətirilməsi tərəflərin ticarət müharibəsinin daha da dərinləşməsinə təkan verən amil sayılır.

Xatırladaq ki, Çin və ABŞ arasında iqtisadi münaqişə 2018-ci ilin yayından etibarən davam edir. Belə ki, keçən il Vaşinqton Çindən idxal olunan və ümumi illik dəyəri 34 milyard dollar olan 818 növ mala 25 faizlik rüsum tətbiq edib. Ötən ay isə Tramp bəyan edib ki, ABŞ sentyabrın 1-dən etibarən Çindən idxal olunan 300 milyard dollar dəyərində mala 10 yox, 15 faizlik, eləcə də 250 milyard dollarlıq digər bir qrup mala 25 yox, 30 faizlik rüsum tətbiq edəcək. ABŞ lideri bu qərarı Çinin Amerikadan idxal olunan və illik dəyəri 75 milyard dollar olan mallara əlavə rüsumlar tətbiq etməsindən sonra verib. Bildirilir ki, 5078 adda malı əhatə edən yeni rüsumlar sentyabrın 1-i və dekabrın 15-i qüvvəyə minir. Bu addımın özü də Vaşinqtonun bir müddət əvvəl 300 milyard dollarlıq idxalata tətbiq etdiyi 10 faizlik rüsumlara cavab olaraq atılıb. Vaşinqtonun da rüsumları sentyabrın 1-i və dekabrın 15-i qüvvəyə minir. Avropada təhlükəsizlik və beynəlxalq münasibətlər üzrə ekspert Emmanuel Dupuy isə baş verənlərin dünya iqtisadiyyatı üçün ciddi təhdid yaratdığı qənaətindədir: "ABŞ-ın Çinə qarşı hədə-qorxuları həm də Çinlə ticarət əlaqələri olan digər Asiya ölkələrinə, eləcə də Yaponiya, Cənubi Koreya və İrana aiddir. Son vaxtlar Asiya ölkələri arasındakı əməkdaşlığın gücləndiyi, bir "yaxınlığın" baş qaldırdığı hiss olunur. Çinlilər getdikcə daha çox Şərq ölkələrinin iqtisadiyyatına üz tutur ki, bu da hansısa formada ABŞ-ın hədələrinə cavabdır. Avropanın qarşısında isə iki yol var: bu vəziyyədən öz mənafeyi üçün bəhrələnmək və yaxud ABŞ-ın mövqeyini müdafiə etmək. Lakin Avropa, ABŞ-dan fərqli olaraq, Çinlə birbaşa qarşıdurmaya getməkdən çəkinir. Rəsmi Brüssel Vaşinqtonu vergiləri artırmaqda dəstəkləyə də bilmir, çünki özü bu artımın qurbanıdır. Bu gedişlə ticarət müharibəsi təhlükəli həddə çatmış olacaq və artıq ikitərəfli deyil, çoxtərəfli xarakter daşıyacaq. Dünya ölkələri iki tərəfdən birinin mövqeyini dəstəkləməli, ABŞ və Çin arasında seçim etməli olacaq".

Rus ekspert İqor Şatrov isə qeyd edir ki, Çin özünün Amerikanın idxal vergisi altına düşən mallarına başqa bazarlar tapacaq: "Ola bilsin, bu addım özünü doğrultmasın. Amma nəzərə almaq lazımdır ki, analoji vəziyyətə Amerika istehsalçıları da düşəcək. Çünki Amerika mallarının Çin bazarlarına ayaq açmasına da məhdudiyyətlər qoyulub. Problemin həlli kompromislərin axtarışındadır. Müharibə sonadək dünyanın ən nəhəng fabriklərinə malik Çinlə alıcılıq qabiliyyəti yüksək olan istehlakçıya malik ABŞ arasında getsə də, qələbə onların ikisindən birinin əlində deyil. Hazırda ABŞ ticarət müharibəsini təkcə Çinlə aparmır, bütün dünya ilə aparır.

Gəlin, misallarımızı polad və alüminium üzərində quraq. Rusiya Sənaye və Ticarət Nazirliyinin məlumatına görə, Rusiyanın metallurgiya biznesində ABŞ ucbatından olan zərərləri polad sahəsində 2 milyard dollara, alüminiumda isə 1 milyard dollara yaxındır.

Belə olan təqdirdə bu, Rusiya metallurgiya şirkətlərinin Şimali Amerikadakı törəmələrinə müsbət təsir göstərəcək.

Çünki Amerika bazarının bağlanması ABŞ-ın daxili bazarında məhsulların qiymətinin artmasına səbəb olacaq". ABŞ-dan fərqli olaraq, Çinlə ticarət məsələlərində daha çox əməkdaşlıq edən Azərbaycan kimi ölkələrə bu proseslərin necə təsir etməsinə gəlincə, ekspert hesab edir ki, Azərbaycan Çin üçün zamanla Amerika bazarını əvəz edəcək ölkələrdən biridir: "Sual isə başqadır: Azərbaycanın və digər onun kimi ölkələrin Çin məhsullarını almaq üçün lazımi tələbatı və alıcılıq qabiliyyəti kifayət edəcəkmi? Nəticədə, bu malların keyfiyyəti uzun müddət qınağa səbəb olub və buna baxmayaraq, dolayısı ilə onların axını artmaqdadır". Ümumiyyətlə isə, ekspertlər hesab edirlər ki, ABŞ dünya bazarlarını bürüməkdə olan Çin mallarının axınının qarşısını kəsə bilməyəcək. Üstəlik, ABŞ-ın bu malları dünya bazarına Çin kimi ucuz qiymətə təklif etmək imkanı və arzusu olmadığından, yenə də dünyanın Çin istehsalına tələbatı böyük olacaq.




**Belə vəziyyətdə Azərbaycan və başqa ölkələr müvafiq tədbirlər görməsə, ölkəmizə Çindən böyük həcmdə ucuz malların daxil olması istisna olunmur. Xatırladaq ki, Çin həm də milli valdyutasını ucuzlaşdırararaq ixracını artırmağa çalışır. Azərbaycanda yerli istehsalın artımı fonunda ucuz Çin məhsullarının yenidən bazarı zəbt etməsi isə sərfəli hal sayılmır. Hər halda, bu məsələ hökumətdə də müvafiq dairələrin xüsusi diqqət mərkəzində yer alır.**

*Tahir TAĞIYEV*

# Banklar real sektora kredit vermək əvəzinə, sərbəst pulu Mərkəzi Banka depozitə qoyurlar...

**Mərkəzi Bank tərəfindən vəsaitlərin cəlb edilməsi üzrə növbəti depozit hərracı avqustun 26-da keçirilib. Hərracda tələb 721.3 milyon manat, hərracın nəticəsində bağlanmış depozit əqdləri üzrə orta ölçülmüş faiz dərəcəsi isə 6,26 faiz təşkil edib. Mərkəzi Bank 100 milyon manat cəlb edəcəyini qabaqcadan açıqlayıb.**




## *Ruslan Atakişiyev: "Banklar dövlətdən fərqli olaraq, həmişə öz gəlirlərinin marağında olublar"*

Bundan əvvəl, avqustun 19-da MB tərəfindən vəsaitlərin cəlb edilməsi üzrə keçirilmiş növbəti depozit hərracında tələb 732 milyon manat, hərracın nəticəsində bağlanmış depozit əqdləri üzrə orta ölçülmüş faiz dərəcəsi isə 6,26 faiz təşkil edib. Həmin vaxt MB 150 milyon manat cəlb edəcəyini öncədən açıqlayıb.

Belə məlum olur ki, banklar sərbəst vəsaitlərini real sektora kredit formasında vermək əvəzinə, daha çox bu vəsaitləri depozit formasında MB-yə yerləşdirməyə maraq göstərirlər. Bu da, bütövlükdə, iqtisadiyyat üçün mənfi göstəricidir. Çünki bu o deməkdir ki, pul kütləsi real iqtisadiyyata çatmır. Nəticədə vəsaitin xeyli hissəsi elə bank sisteminin özündə dövr edir. Necə deyərlər, vətəndaşlar banklara əmanət qoyduğu kimi, banklar da MB-yə əmanət qoyurlar. Sadəcə, MB kommersiya banklarından fərqli olaraq, əmanətləri həmişə qəbul etmir. Yalnız depozit hərracları keçirən zaman bu vəsaitləri cəlb edir.

Görünən odur ki, Azərbaycanda keçirilən hərraclara bankların marağı yüksəkdir. Maraqlıdır, niyə banklar sərbəst vəsaitlərini kredit formasında verməkdə maraqlı deyillər? Bu vəsaitləri MB-də depozit formasında yerləşdirməkdə niyə daha çox maraqlıdırlar? Həmin vəsaitlər kredit şəklində verildikdə faizlər daha yüksək olur.

Məsələyə münasibət bildirən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin direktoru Ruslan Atakişiyev bunu bir sıra amillərlə əlaqələndirdi: "Bunun müxtəlif səbəbləri var. Məsələ ondadır ki, banklar öz vəsaitlərinin idarə olunmasında daha çox risq dərəcələrinə diqqət edirlər. Risqi bir qədər çox olan sahələrə kredit verməkdən yayınırlar. Real sektorda daha çox uzun müddət fəaliyyət göstərən sahələrə kredit verirlər. Bu sektorda yeni yaradılan təsərrüfat sahələrinə kredit verməkdə maraqlı olmurlar. Ona görə də bu kimi risqlər baxımından banklar sözügedən sahələrə kredit vermək əvəzinə, bu vəsaiti depozit formasında MB-də yerləşdirməyə üstünlük verirlər. Digər səbəb gəlirliliyin təmin edilməsi ilə bağlıdır. Real sektora verilən kreditlərin gəlirliliyi yüksək görünsə də, onların qaytarılması vaxt tələb edir.

*"Real sektora verilən kreditlərin gəlirliliyi yüksək görünsə də, onların qaytarılması vaxt tələb edir"*

Problemli kreditlər məsələsi bankları, bir növ, bu sahəyə kredit verməkdən çəkindirir. Banklar görürlər ki, harada risq azdır, ora meyl edirlər. Depozit hərraclarına maraq həm də bununla bağlıdır.

**Bir məqamı da qeyd edim ki, banklar dövlətdən fərqli olaraq, həmişə öz gəlirlərinin marağında olublar. Yəni ucuz vəsait qəbul edib bundan tez və daha çox gəlir əldə etmək. Ancaq mənfəət əldə etməyi düşünürlər. Ona görə də banklar üçün ölkənin real sektorunun inkişafı əsas məqsəd deyil. Onların əsas məqsədi gəlir əldə etməkdir".**

***Vidadi ORDAHALLI***

# Dövlət müəssisələrinin götürdükləri kreditləri vaxtında ödəyə bilməməsinin səbəbləri...

**Prezident İlham Əliyevin fiziki şəxslərə verilmiş kredit probleminin həlli ilə bağlı əlavə tədbirlər haqqında sərəncamının icrasından sonra bankların ümumi kredit portfelində problemli kreditlərin miqdarı və payı azalmağa başladı. Belə gözlənirdi ki, banklarda problemli kreditlərin həcmi sonrakı dövrdə də azalmağa doğru gedəcək.**



## *Fuad İbrahimov: "Adətən layihə ilə bağlı işlərin vaxtında yerinə yetirilməməsi belə problemlərin yaranmasına gətirib çıxarır"*

Ancaq Mərkəzi Bankının statistik rəqəmləri göstərir ki, bu ilin iyul ayında vaxtı keçmiş kreditlərin həcmi artıb. Belə ki, iyun ayının sonunda onların həcmi 1 milyard 486.5 milyon manat idisə, iyulun sonuna bu göstərici 0.9 milyon manat artaraq 1 milyard 487.4 milyon manata çatıb. Təxminən 1 milyon manata yaxın artım var. Düzdür, bu rəqəm o qədər də böyük deyil, amma, ümumilikdə, vaxtı keçmiş kreditlərin həcmi azalmaq əvəzinə, sanki yenidən artır.

Məlum olub ki, vaxtı keçmiş kreditlərin artması dövlət müəssisələri hesabına olub.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun sözlərinə görə, dövlət müəssisələrinin kredit borclarını qaytara bilməməsi faktları artıb. Onun sözlərinə görə, son illər dövlət müəssisələrinin həm dövlət zəmanəti altında, həm də zəmanət olmadan cəlb olunan kreditlər üzrə vaxtı keçmiş borcları ödəyə bilməməsi faktlarının sayı getdikcə artır.

Onu da qeyd edək ki, belə hallar zamanı adətən həmin borc son nəticədə dövlət büdcəsi hesabına ödənilir. Yəni çox vaxt dövlət bu məsələyə müdaxilə etmək məcburiyyətində qalır. Nəticədə borc yükü dövlət büdcəsinin üzərində qalır.

Maraqlıdır, dövlət müəssisələrinin götürdükləri kreditləri vaxtında ödəyə bilməməsinin səbəbləri nə ilə bağlıdır?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, dövlət müəssisələrinin götürdükləri kreditləri vaxtında ödəyə bilməməsinin müxtəlif səbəbləri ola bilər: "Səbəblərdən biri onunla bağlı ola bilər ki, iş vaxtında yerinə yetirilməyib. Adətən layihə ilə bağlı işlərin vaxtında yerinə yetirilməməsi belə problemlərin yaranmasına gətirib çıxarır. Digər tərəfdən görürsən ki, kredit alınmazdan əvvəl layihə düzgün qiymətləndirilmir. Başqa bu və digər səbəblər üzündən də belə problemlər yaranır. Adətən dünya praktikasında belə hallarla bağlı geniş araşdırma aparılır və bunun səbəbləri ortaya çıxarılır. Digər hallarda isə dövlət borcların qaytarılmasını öz üzərinə götürüb məsələni bağlayır. Azərbaycanda dövlət müəssisələrinin borclarının artmasının səbəbləri yaxşı olardı ki, Hesablama Palatası tərəfindən araşdırılsın. Yoxlamanın konkret nəticələrindən sonra məlum olacaq ki, müəssisə nəyə görə borcu qaytara bilmir.

*"Belə hallar aşkarlanarsa, o zaman buna görə cavabdehlik daşıyanlar məsuliyyətə cəlb edilməlidirlər"*

Ola bilsin ki, ortada sırf başqa səbəblər var. O da ola bilər ki, ortada məsuliyyətsizlik faktı var. Belə hallar aşkarlanarsa, o zaman buna görə cavabdehlik daşıyanlar məsuliyyətə cəlb edilməlidirlər. Yox, əgər layihə həyata keçirilən zaman obyektiv səbəblər üzündən fors-major vəziyyət yaranıbsa, o zaman borcun aktlaşdırılıb silinməsi mümkündür. Bu kimi metodlarla müəyyən etmək olar ki, dövlət müəssisələri niyə borcu vaxtında qaytara bilmirlər. Bu baxımdan hesab edirəm ki, bu işin təftişi aparılmalıdır. Yalnız bundan sonra daha konkret cavab vermək olar. Yəni borc səhlənkarlıq üzündən yaranıb, yoxsa obyektiv səbəblər üzündən".

***Vidadi ORDAHALLI***

# "Leveland" kursu Avstriyada oxumaq üçün hərədən 3500 yığdı, sonra yoxa çıxdı...

**Sosial şəbəkələrdə Nərgiz Həsənli adında şəxs Avstriyada oxumaq üçün müraciət etdiyi "Leveland" kursunun təmsilçisi olan İsgəndər Ağayev tərəfindən aldadıldığını deyib: "Gördüyünüz bu şəxs 6 ay əvvəl məndən 3500 manat alaraq Avstriyada təqaüdlü təhsil sözu verib.**




***Məhərrəm Zülfüqarlı:** "Belə kursların nə dərəcədə ciddi olması araşdırılmalıdır"*

Bu şəxsin adı İsgəndər Ağayevdir. "Leveland" adlı kursda işləyirdi. İki aydır kursu bağlayıb, "İnstagram" və "Facebook" səhifələrini silib. Nə zənglərə cavab verir, nə mesajlara. Məndən başqa da onlarla adamın pulun alıb aradan cıxıb. Polisə ərizə yazmışam, dediklərinə görə, ölkəni tərk edib və onun barəsində 100-ə yaxın şikayət var. Bu qrupda başqa kimisə aldadıbsa, bura yazsın zəhmət olmasa".

Qeyd edək ki, Nərgiz Həsənli bu fikirlərini sosial şəbəkədəki qruplardan birinə ünvanlayıb və həmin qrup da bunu yayıb. Nərgiz Həsənlinin şəxsən özü ilə əlaqə yaradıb məsələni ətraflı öyrənmək mümkün olmadı.

Ancaq internet üzərindən "Leveland" adlı kurs barədə bəzi araşdırmalar apardıq. Çox qəribədir ki, adı dələduzluqda hallanan təhsil mərkəzi barədə cəmi iki internet resursunda çox cüzi məlumat var. Ümumiyyətlə, bu kursun öz rəsmi internet ünvanı, saytı yoxdur. Məlum oldu ki, "Leveland" Təhsil İnkişaf Mərkəzi 2016-cı ilin 22 mayında fəaliyyətə başlayıb və mərkəzin direktoru həqiqətən də İsgəndər Ağayevdir.

İkinci məlumat isə 2016-cı il oktyabrın 27-də Xəzər Universiteti Karyera Mərkəzi ilə "Levelland" Təhsil İnkişaf Mərkəzinin görüşü barədədir. Xəzər Universitetinin tələbə və məzunlarının iştirak etdiyi görüşdə "Levelland" Təhsil İnkişaf Mərkəzinin drektoru İsgəndər Ağayev mərkəzin fəaliyyəti, eyni zamanda, ABŞ, İngiltərə və digər Avropa ölkələrində təqaüd və staj proqramları barədə məlumat verib. Bu məlumatlardan başqa, sözügedən təhsil mərkəzi barədə heç bir məlumata rast gəlmədik. Adətən belə mərkəzlərin konkret ünvanları olur.

Məsələ ilə əlaqədar Xəzər Universiteti ilə əlaqə saxladıq. Universitetdən adını çəkməyən bir şəxs bildirdi ki, onların "Levelland" Təhsil İnkişaf Mərkəzi ilə heç bir bağlılığı, yaxınlığı yoxdur. Sadəcə, 3 il əvvəl bir görüş keçirilib.

*"Gənclər xaricdə təhsil almaq məsələsində aldanmamaq üçün birbaşa həmin universitetlərin özləri ilə əlaqə saxlamalıdırlar"*

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən təhsil sahəsi üzrə ekspert Məhərrəm Zülfüqarlının sözlərinə görə, xaricdə təhsil almaq istəyən gənclər dələduzluqla məşğul olan mərkəzlərin toruna düşməmək üçün ayıq-sayıq olmalıdırlar: "Belə kursların nə dərəcədə ciddi olması araşdırılmalıdır. Ondan sonra müraciət etməklə bağlı qərar verməlidirlər.

Çünki Azərbaycan gənclərinin əksəriyyəti internet resurslarından istifadə etmək bacarığına malikdir. İndi elə dövrdə yaşayırıq ki, təyyarə biletindən tutmuş, digər xidmətləri belə, internet üzərindən almaq olur. Ona görə də gənclər xaricdə təhsil almaq məsələsində aldanmamaq üçün birbaşa həmin universitetlərin özləri ilə əlaqə saxlamalıdırlar. Hər bir universitetin saytı var. Həmin saytlara girib bütün məlumatları əldə etmək olar.

**Buna görə hansısa kursa müraciət etməyə ehtiyac yoxdur. Nəzərə almaq lazımdır ki, dələduzluqla məşğul olan kurslar əsasən bir az aşağı savadı olan gəncləri aldadırlar. Onların pulunu mənimsəyirlər. Ona görə də aldanmamaq üçün birbaşa həmin ali məktəblərlə əlaqə saxlamaq daha məqsədəuyğundur".**

***Vidadi ORDAHALLI***

# Peşə məktəblərinə qəbul olunanların çoxu aşpazlıq ixtisası seçir...

**Əmək bazarında qısa müddət ərzində peşəkar ixtisaslı kadrlara çevrilmək istəyən gənclərimiz peşə təhsilinə daha çox üstünlük verirlər. Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaydığı məlumatda qeyd olunur ki, 2019-2020-ci tədris ilində dövlət peşə təhsili müəssisələrinə qəbul olunanlar daha çox aşpaz ixtisasına üstünlük veriblər.**

*"Aşpazlıq ixtisasına malik olanlar iş sarıdan əziyyət çəkmirlər"*

Peşə təhsilinə yiyələnənlər arasında elektrik qaz qaynaqçısı, kompyuter operatoru, aqroservis mütəxəssisi, xalçaçı, əməliyyatçı-mühasib, elektrik montyoru, mehmanxana inzibatçısı, bitkiçilik mütəxəssisi ixtisasları seçənlər də az deyil.

Qeyd edək ki, əvvəllər peşə təhsili müəssisələrinə qəbul olunanlar qaynaqçı, dərzilik, elektrik monytoru ixtisaslarına üstünlük verirdilər. Ancaq indisə üstünlük aşpazlıq sahəsində cəmləşib. Maraqlıdır, gənclərin aşpazlıq sahəsinə maraq göstərməsinin səbəbi nə ilə bağlıdır?

Milli Kulinariya Assosiasiyasının prezidenti Tahir Əmiraslanov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu gün aşpazlıq ixtisasına maraq yüksəkdur. Bunun müxtəlif səbəbləri var: "İlk növbədə bildirim ki, son zamanlar Azərbaycan turizminin inkişaf etməsi restoran otellər şəbəkəsinin genişlənməsinə səbəb olub. Restoran biznesinin inkişaf etməsi aşpazlara tələbatı artırır. Aşpazlıq ixtisasına malik olanlar iş sarıdan əziyyət çəkmirlər. Onlar ya otel, ya da restoranlarda öz ixtisası üzrə fəaliyyət göstərə bilirlər".

Həmsöhbətimiz onu da əlavə etdi ki, aşpazlıq ixtisasına marağın artması səbəblərindən biri də uzun illərdir bu sahənin vacibliyi barədə aparılan təbliğat işidir. Görülən işlər sayəsində bu gün aşpazlıq

***Tahir Əmiraslanov:** "Restoran biznesinin inkişaf etməsi aşpazlara tələbatı artırır"*



ixtisası şöhrətli peşələrdən biridir: "Öz işinin peşəkarı olan şəxslərə bu gün tələbat yüksəkdir. Restoranlar peşəkar kulinar və aşpazı yüksək dəyərləndirirlər. Çünki o aşpazın hazırladığı dadlı təamlar sayəsində restorana gələn müştərilərin sayı artır. Danılmaz faktdır ki, bu gün Azərbaycan mətbəxinin şöhrəti dünyaya səs salıb. Ölkəmizə xaricdən gələn qonaqlar restoranlarda xarici mətbəxin təamını deyil, milli yeməkləri dadmağa üstünlük verirlər".

***Günel CƏLİLOVA***

# Müəllim olmaq istəyənlərin psixoloji durumu da öyrəniləcək

## *Kamran Əsədov: "Müəllim işləmək istəyən şəxslərin psixoloji durumunun yoxlanması müsbət haldır"*

**Azərbaycanda müəllim olmaq istəyən namizədlər müxtəlif mərhələli imtahan prosesi keçirlər. Müəllimlərin əlavə yerləşdirilməsi üzrə müsabiqənin müxtəlif mərhələləri olur. Onlardan biri və əsası müsahibə mərhələsidir. Qeyd edək ki, müsahibə zamanı namizədlərin ixtisası üzrə bilik və bacarıqları, psixoloji durumu və ümumi dünyagörüşü yoxlanır.**

Müəllim olmaq istəyən şəxslərin psixoloji vəziyyətinin dərindən yoxlanılması vacib bir məsələdir və bu da müvafiq qurumlar tərəfindən həyata keçirilir. Bildirək ki, son illər ən aktual məsələlərdən biri müəllimlərin psixoloji vəziyyətinin yoxlanılması ilə bağlı idi. Bilirik ki, əvvəlki dövrlərdə müəllimlərin psixoloji durumunun yoxlanılması tətbiq edilmirdi. Ancaq bu ildən bu məsələyə Təhsil Nazirliyi daha böyük önəm verir.

Ekspertlər bildirirlər ki, müəllimlərin psixoloji vəziyyətinin normal olması tədrisdə mühüm amillərdən biridir. Onlar hesab edirlər ki, müəllimin psixoloji vəziyyətinin anormallığı tədrisin də keyfiyyətinə, onların şagirdlərlə davranışına mənfi təsir göstərir.

Tanınmış təhsil eksperti Kamran Əsədov bizimlə söhbətində qeyd etdi ki, təlim-tərbiyə və tədris prosesinin uğurlu nəticəsi üçün müəllimlərin bilik və bacarıqları ilə yanaşı, onların psixoloji durumları də əsas şərtlərdən biridir. "Təəsüf ki, bu gün Azərbaycan mətbuatında, demək olar ki, bütün xarakterli informasiyalarda müəllimlərin də adı hallanır. Bu təkcə onların maddi ehtiyaclarına görə deyil, eyni zamanda, psixoloji hazırlıqsızlıqlarına görə də baş verir.

Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun apardığı araşdırmalar göstərir ki,

- Tədris etdiyi fəndə zəif olan;
- Fənn bilikləri yerində, amma metodikası zəif, fənni çatdıra bilməyən;
- Fənn bilikləri, metodikası yerində, amma uşaqlarla işləyə bilməyən;
- Yaxşı dərs qura bilən, amma şagird nailiyyətini qiymətləndirmək problemli;
- Sinif idarəçiliyində çətinliyi olan müəllimlər var.



*"Müəllimlərin işə qəbulu zamanı onların psixoloji hazırlığına xüsusi diqqət etmək lazımdır"*

Belə problemlərin çözülməsi istiqamətində də treninqlər, seminarlar təşkil olunur.

Hesab edirəm ki, müəllimlər təlimlərə beş ildən bir deyil, ilboyu, daha dəqiqi, peşəkarlığındakı qüsur aradan qaldırılana qədər cəlb olunmalıdırlar.

Böyüməkdə olan nəslin hərtərəfli tərbiyəsi məktəblərin qarşısında duran daimi və başlıca problemdir. Bu mühüm problemin həlli məktəblərimizdə çalışan pedaqoji kollektivlərin hər bir üzvünün ümumi hazırlığından, dünyagörüşü, əqidəsi, pedaqoji-psixoloji bilik, bacarıq, qabiliyyətindən və s. asılıdır.

Məlum olduğu kimi, təlim-tərbiyə işi iki tərəfin - öyrədən, tərbiyə edən müəllim və öyrənən, tərbiyə olunan şagird, başqa sözlə, təsir edən və təsir olunanlar arasında baş verən mürəkkəb bir prosesdir. Müəllim həmin prosesdə aparıcı, təşkil və idarəedici, istiqamətləndirici rola malikdir. Müəllim öz üzərinə düşən bu vəzifəni müvəffəqiyyətlə yerinə yetirmək üçün, hər şeydən əvvəl, ayrıayrı şagirdləri, bütünlükdə sinif kollektivini yaxından duymalı, hiss etməli, başa düşməli, tanımalıdır. Yəni əgər müəllim bir şagirdə və ya şagird kollektivinə hər hansı cəhətdən təsir göstərmək istəyirsə, onda onları həmin təsirə məruzqalma halına ram etməyi bacarmalıdır. Ayrı-ayrı fərdlər və ya şagird kollektivi yalnız o zaman müəllimin təsirinə məruz qala bilər ki, onlar özlərini könüllü, şüurlu surətdə həmin təsirə yönəltmiş olsunlar. Göründüyü kimi, təsiretmə və təsirolunma müəllimlə şagird arasındakı qarşılıqlı əlaqədən, daha doğrusu, bu əlaqəni tənzim edən, sahmana salan qarşılıqlı əlaqədən asılıdır. Əgər müəllimlə şagird arasındakı münasibətlər obyektiv, həqiqi köklər üzərində yaradılmışsa, bu halda həm təsir etmək, həm də təsirolunma səmərəli nəticə verə bilər. Bu qeyd edilənlərdən aydın olur ki, məktəblərdə aparılan təlim-tərbiyə işlərinin müvəffəqiyyət və səmərəliliyi müəllim-şagird münasibətlərindən, psixoloji dildə desək, şəxsiyyətlərarası münasibətlərdən çox asılıdır. Məlumdur ki, şagirdlərin ayrı-ayrı müəllimlərə və fənlərə münasibətləri fərdi xarakter daşıyır. Şagirdlərin müəllimə qarşı olan subyetktiv münasibətləri nə qədər müxtəlif olsa da, bunlar tədricən sinif kollektivinin həmin müəllimə olan ümumi obyektiv rəyinə - münasibətinə çevrilir. Sinif kollektivinin bu və ya digər müəllimə münasibəti çox vaxt onun tədris etdiyi fənnə də münasibətini müəyyənləşdirir. Təsadüfi deyil ki, bəzi məktəblərdə bu və ya digər fənn müəllimini dərs dediyi siniflərin bütün şagirdləri sevir, hörmət edir, onun dərsinə həmişə hazırlıqlı gəlməyə səy göstərirlər. Bu halın əksinə də rast gəlmək olar". O bildirdi ki, təlim-tərbiyə işlərinin müvəffəqiyyətliliyində müəllim-şagird münasibətləri mühüm əhəmiyyət kəsb edir. Ekspertin fikrincə, təəssüf ki, cinsi işgəncə yetkinlik yaşına çatmamış, yeniyetməlik dönəmindəki uşaqlar arasında daha çox müşahidə olunur. "Təsadüfi hal deyil ki, bu problemlər daim yuxarı siniflər, yəni 10-11 yaşından başlayır, intensivlik 8, 9, 10,11-ci siniflər arasında daha çox rastlanır. Ona görə də müəllimlərin işə qəbulu zamanı bu məsələyə, onların psixoloji hazırlığına xüsusi diqqət etmək lazımdır.

Müəllim işləmək istəyən şəxslərin psixolji durumunun yoxlanması müsbət haldır. Bununla belə hesab edirəm ki, müəllimlər 6 aydan bir intensiv psixoloji müayinələrdən keçməlidirlər. Ola bilər ki, işə götürülərkən psixoloji vəziyyəti yerində olub. Amma elə travma yaşayıb ki, onun psixoloji vəziyyətində gərginliklər, problemlər var. Bunun üçün də yaxşı olardı ki, şəbəkələşdirilmiş müəssisə formalaşdırılsın. Onlar müayinələrdən mütəmadi keçsinlər ki, problemlər vaxtında aşkarlansın" - deyə K.Əsədov qeyd etdi.

***İradə SARIYEVA***

**Xəbər verildiyi kimi, Azərbaycanda spirtli içkilərin təhlükəsizliyi ilə bağlı sənəd hazırlanır. Qeyd edək ki, hazırda AQTA və AQTİ bitki və heyvan mənşəli qida məhsulları üçün mövcud beynəlxalq standartlar nəzərə alınmaqla sanitariya norma və qaydalarını, gigiyena normativlərini işləyib hazırlayırlar.**

# Spirtli içkilərin keyfiyyət və təhlükəsizlik göstəriciləri lazımi səviyyədə olubmu...

***Eyyub Hüseynov:*** *"Əhaliyə standartlara uyğun olmayan və müxtəlif brendlərlə qablaşdırılmış spirtli içkilər satılır"*



Bu proses çərçivəsində Azərbaycanda istehsal olunan və idxal edilən şərabçılıq məhsullarının keyfiyyət və təhlükəsizlik parametrlərinin əks olunduğu "Spirtli içkilərin təhlükəsizliyi və minimum keyfiyyətinə dair tələblər" sənədi üzərində iş gedir. Yeni sənədə əsasən, Azərbaycanda spirtli içkilərin təhlükəsizliyi və keyfiyyəti ilə bağlı sənəd hazırlanacaq.

Maraqlıdır, əvvəllər bu sahədə Azərbaycanda vəziyyət necə idi? Spirtli içkilərin təhlükəsizliyi və keyfiyyəti lazımi səviyyədə olubmu?

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, spirtli içki sektorunda vəziyyət xoşagələn deyil: "Azərbaycanda içkilər bazarı həddindən artıq çirklənmiş bir sektordur. Əhali bilməlidir ki, araqların satış şəbəkələrində saxlanma müddəti bir ildən artıq olmamalıdır.

Ümumiyyətlə, əhali bilməlidir ki, araqların satış şəbəkəsində saxlanma müddəti 1 il, konyaklar 3 il, şərablar isə 6 aydır. O mala üstünlük versinlər ki, onun üzərində buraxılma tarixi və son yararlılıq müddəti var. Bütün hallarda, istehlakçı zəhərlənərsə, təhlükəli bir qida və ya spirtli içki aşkarlayarsa, Qida Təhlükəsizliyi Agentliyinə və İqtisadiyyat Nazirliyinə, istehlakçı hüquqları pozularsa, o zaman Azad İstehlakçılar Birliyinə ərizə ilə müraciət etsinlər.

*"Bakı ətrafında bəzi firmalar heç bir üzüm plantasiyası olmadan, qarışıq mayelərdən spirtli içkilər hazırlayıb əhaliyə təklif edirlər"*

Onu da deyim ki, 95 faiz araqların üzərində buraxılma tarixi, yararlılıq müddəti yoxdur. Ölkənin əmtəə bazarında hətta xaricdən gətirilən arzuolunmaz içkilər kifayət qədər çoxdur. Təəssüflər olsun ki, Bakı ətrafında bəzi firmalar heç bir üzüm plantasiyası olmadan, qarışıq mayelərdən spirtli içkilər hazırlayıb əhaliyə təklif edirlər. Onu da bildirim ki, xarici ölkələrdən də Azərbaycana kifayət qədər keyfiyyətsiz spirtli içki gətirilir. Bununla yanaşı, şadlıq evlərinin zirzəmilərində saxta spirtli içkilər hazırlanır. Ucuz başa gəlsin deyə, xüsusi menyu tərtib edilir". Həmsöhbətimiz onu da vurğuladı ki, təhlükəli və standartlara uyğun olmayan qidalar ilk növbədə spirtli içkilər bazarındadır: "Düşünürəm ki, bu sahəyə nəzarət funksiyası Daxili İşlər Nazirliyinə həvalə edilməlidir. Əhaliyə standartlara uyğun olmayan və müxtəlif brendlərlə qablaşdırılmış spirtli içkilər satılır. Bu xüsusən də şadlıq evlərində geniş yayılıb".

***Günel CƏLİLOVA***

**Şahdağ milli etnik qrupuna daxil olan etnoslar Quba rayonunun Buduq, Cek, Əlik, Haput, Qrız, Xınalıq və Yergüc kəndlərinin adlarına müvafiq olaraq buduqlular, ceklilər, əliklilər, haputlular, qrızlılar, xınalıqlılar, yergüclülər adlanır. Say etibarı ilə az olsalar da, bu kəndlərin hərəsinin əhalisi ayrı-ayrılıqda bir etnik qrupdur.**

# Yeddi etnosun "yeddi möcüzəsi"...

*Turistlərin sevimli məkanları - Haput və Əlik kəndləri*





Bu yeddi etnosun mərkəzi iqamətgahları Şahdağ platosunda yerləşir və bir-birinə çox yaxındır.

Azərbaycan Respublikasında yaşayan şahdağlıların ümumi sayı 45 min nəfərdir. XX əsrdə mövcud olmuş Sovet xalqı nəzəriyyəsi, o cümlədən Qafqaz xalqları kimi Şahdağ xalqlarına da çox ziyan gətirmiş, bu xalqların bəzi adət-ənənələrinin ləğv olunması, yaxud unudulması ilə nəticələnib.

Quba rayonu Bakıdan 168 km məsafədə yerləşir. Böyük Qafqazın Şahdağının şimal-şərq yamaclarında, dəniz səviyyəsindən 600 metr yüksəklikdə yerləşir. Əlik kəndi Ağçayın sağ sahilində, Yan silsiləsinin cənub qərb ətəyindədir. Azərbaycanın Şahdağ qrupundan olan xalqın məskunlaşdığı qədim kəndlərdən biridir. Kür adlandırılan kiçik dağ çayının sahilindəki çökəklikdə salınmışdır. Əliklilər Azərbaycanın milli etnik nümayəndələri olmaqla ana dili əlik dilidir. Əlik kəndi dəniz səviyyəsindən 1700 metr yüksəklikdə yerləşir. Tədqiqatçıların fikrincə, oykonim xakas, tuvin, Şor və Sibir türklərinin dilində "kənd, aul, ulus" mənalarında işlənən al sözünə kiçiltmə bildirən -ik şək.-sini əlavə etməklə, yaxud "hündürlük, yüksəklik, zirvə" mənasında işlənən alık sözündən yaranmışdır. Digərlərinə görə, Əlik kənd adı türk dillərində "dağlarda çuxur, çökək" mənalarında işlənən alık sözü ilə bağlıdır. Bu fikir kəndin coğrafi mövqeyinə uyğundur. 2011-ci ilin aprel ayında Azərbaycanın Şimal bölgəsinə yağan güclü yağışlardan sonra Qubanın Əlik kəndində yenidən torpaq sürüşməsi baş verib. Torpaq sürüşməsi kəndin böyük bir ərazisini əhatə edib. Sürüşmə nəticəsində kənddə olan 58 evdən 5-i tamamilə uçub, 10-dan çox evdə qəzalı vəziyyət yaranıb.

Həmçinin, Quba Rayon Mərkəzi Kitabxana Sisteminin Əlik kənd kitabxana filialının binası da yararsız hala düşüb. Kəndin yuxarı hissəsindəki təpəlikdə baş verən sürüşmə çay tərəfə irəliləməyə başlayıb. Həmin ərazidə 2010-cu ildə də sürüşmə hadisəsi baş vermişdi.

XIX yüzillikdə Əlikdə yun şal istehsalı çox geniş yayılmışdı. Kənddə məskunlaşmış əhalinin çox böyük əksəriyyəti hazırda qışlaq və yaylaq şəraitindən istifadə etməklə heyvandarlıqla məşğul olur. Onlar ilin bir yarısını qışlaqda, digər yarısını isə yaylaqda keçirməyə adət edib. Hər il oktyabrın 1-dən 15-dək qoyun sürülərini qışlağa endirir, may ayının 1-15-i arası isə yaylağa çıxarırlar.

Haputlular da əliklər kimi Şahdağ qrupuna daxil olub özünəməxsus dilə malikdir. Haputlar özlərinə hərər deyirlər. Dağların əhatəsində yerləşən bu kənd dəniz səviyyəsindən təxminən 2000 metrə yaxın yüksəklikdə yerləşir. Xınalıqdan sonra Şahdağ qrupuna daxil olan ikinci ən çox saylı xalqdır. Kənddə 200-ə qədər ev var. Kəndin adı Ptolemeyin (II əsr) Albaniya şəhərləri sırasında qeyd etdiyi Xabota ilə əlaqələndirilir. Haputlular Qədim Albaniyada yaşayan 26 tayfadan biri olan hər tayfasının nümayəndəliridir . Hazırda da qonşu kəndlər Haputlulara öz dillərində Hər deyirlər. Azərbaycan dilinin dialektlərində həm hapıtdı (hapıtmaq), həm də hər sözü "tələsik, vaxtından tez" mənalarında işlənir. Qış vaxtı kənd sakinlərinin bir qismi kəndi tərk edir və qışlağa gedir. Əsas təsərrüfatı maldarlıqdır. Haput kəndi ilə üzbəüz Tayduz dağ yaylağı, bir qədər sağa tərəf Çiye yaylağı, onun üst tərəfində Qarabulaq yaylağı, Təntə yaylağı, İsmayıllı istiqamətində isə Pətən yaylağı, Qəbristanlıq yaylağı, kəndin yuxarısına doğru isə Gurbulağ yaylağı yerləşir. Kəndin ərazisindən Tayduz yaylağından sağa doğru Aslan və Qaplan dağları görünür. Bundan savayı kəndin qərbində 3323 metr hündürlüyə malik yerli sakinlərin kəndin yuxarısındakı pirlə üzbəüz Şıxməmməd baba adlandırdıqları dağ yerləşir. Bu dağ da Haputluların Qiblə dağıdır. Bundan savayı kəndin ərazisində Babadilim türbəsi və Qızdırma piri, qədimi qəbristanlıq yerləşir.

Dağlıq zona, təmiz ekoloji mühit və mehriban simalar hər iki kəndə turist axınında şərait yaradır. Kənd sakinləri qonaqları öz şəxsi evlərində yerləşdirməklə onların həm yerli adətləri, həm də mətbəxləri ilə yaxından tanış olmalarına şərait yaradırlar. Hər il Bakı şəhərindən çoxsaylı insan yay tətili üçün bu gözəl kəndlərə üz tutur. Heç şübhəsiz ki, Quba rayonu ərazisində yaradılan Destinasiya Menecmenti Təşkilatı bu ərazidə turizmin inkişafına öz töhvələrini vermiş olacaq.

**Yazı "Qafqaz Araşdırmaları Mərkəzi" İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirilən "Azərbaycanda mədəni müxtəliflik dəyərləri və onun turizmin inkişafında rolunun təbliği (Şahdağ milli etnik qrupu)" layihəsi çərçivəsində hazırlanıb.**

№ 154 (4052) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

3 SENTYABR 2019-cu il

www.baki-xeber.com



## Floridada sualtı kitabxanalar...

**Key Vest Adasındakı iki oteldә quraşdırılan sualtı kitabxanalar tәqdim edilib. "Ted.az" bildirir ki, qeyri-adi kitabxanalar hovuzlarda yerlәşir.**

Mәkanı ziyarәt edәn oxucular orada su keçirmәyәn kitabları görә bilәrlәr. Hәmin kitablar islanmır vә suyun altında da korlanmır. Qonaqlar vaxt mәhdudiyyәti olmadan vә heç bir ödәnişi etmәdәn suya dözümlü kitabları oxumaqdan zövq ala bilәrlәr. Kitabxanada yerlәşәn әdәbiyyatın әsas hissәsi klassik şeirlәr vә romanlardan ibarәtdir. Bunların arasında Şekspirin Maqbetinin xüsusi nüsxәlәri, Vilyam Yatesin şeirlәri, hәmçinin Mark Tvenin hekayәlәri dә mövcuddur.

## 50 metr dәrinlikdә işlәyә bilәn "ağıllı" saat - qiymәti 500 dollar olacaq



**Saat istehsalçısı Casio bazarda Pro Trek WSD-F21HR adlı cihaz tәklif edәrәk, "ağıllı" devayslar xәttinin genişlәndirilmәsini elan edib.**

"Ted.az" bildirir ki, "ağıllı" saat gözәl stilә malik korpus, elәcә dә, tәkmillәşdirilmiş xüsusiyyәtlәrә sahibdir. Bazarda onun qiymәti 500 dollara qәdәr olacaq. Tәklif olunan Pro Trek WSD-F21HR modeli 1,32 düymlük ikili ekrana sahibdir. Bundan әlavә, "ağıllı" saatların әn böyük yeniliyi sәlәfindә istifadә edilmәyәn ürәk döyüntülәri ötürücüsünün tәtbiqidir. Yeni model saat sahibinin yerini tәqib edә bilәcәk quraşdırılmış GPS moduluna malikdir. Yeniliyin üstünlüklәri arasında MIL-STD-810G-in etibarlılıq standartı da sәslәndirilib. "Ağıllı" saat 50 metrә qәdәr dәrinliyә batırla bilәr.

## Elan

Şәki şәhәr sakini Heydәrov Sәmәd Fәttah oğlunun adına verilmiş 0319670 saylı Daşınmaz әmlakın Dövlәt reyestrindәn çıxarışı itdiyi üçün etibarsız sayılır.

Şәki rayonu, Aşağı Daşağıl kәnd sakini Hümmәtova Züfurә Cuma qızının adına verilmiş AN: 445669 nömrәli torpaq sahәsinin planı vә ölçüsü itdiyi üçün etibarsız sayılır.

Baki şәhәr sakini Hüseynov Sәyyad Ənvәr oğluna mәxsus, qeydiyyat nömrәsi 1117069328, dövlәt reyestr çıxarışının nömrәsi 1129499 olan, Bakı şәhәri, Yasamal rayonu, Çingiz Mustafayev küçәsi, ev 110, mәnzil 9-un sәnәdi itdiyi üçün etibarsız sayılır.

İsmayılov Musa İsa oğluna Bakı Mühәndislik Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Şirinov Natiq Rza oğluna DİN tәrәfindәn verilmiş müharibә veteranı vәsiqәsi itdiyi üçün etibarsız sayılır.




## "Azercell" korporativ müştәrilәri üçün yeni "Biznesim İnternet Xәtti" xidmәtini tәqdim edir

**"Azercell Telekom" MMC korporativ müştәrilәri üçün yeni nәsil "Biznesim İnternet Xәtti" xidmәtini istifadәyә verib. Etibarlı vә yüksәk sürәtli internet bağlantısı vasitәsilә "Azercell" müştәrilәrinә rәqәmsal dünyada öz bizneslәrini hәr zaman onlayn saxlamağa yardım edәcәk.**

"Biznesim İnternet Xәtti" xidmәti sayәsindә korporativ müştәrilәr internet bağlantısını bölüşmәk vә ya istehlakçı trafiki ilә rәqabәt aparmaq mәcburiyyәtindә qalmayacaq.

Şirkәtin işlәri daim etibarlı internet bağlantısını tәlәb edәn veb-saytın idarә edilmәsi vә ya onlayn satışlar, İP üzәrindәn Sәs (Voice over IP) xidmәtlәri, bulud tәtbiqlәri vә ya irihәcmli fayl köçürmәlәrilә әlaqәdardırsa, o zaman "Biznesim İnternet Xәtti" xidmәti әn ideal seçimә çevrilәcәk. Daimi bağlantını tәmin etmәk üçün standart vә şәrti tәhlükәsizlik seçimlәrinin tәklif olunduğu xidmәtin bir sıra üstünlüklәri var:

**Ehtiyacınız olan sürәt**

5Mb/s, 10Mb/s, 15Mb/s, 20Mb/s, 30Mb/s, 50Mb/s vә ya 100Mb/s paketlәrindәn korporativ müştәrilәr bizneslәri üçün әn uyğun olanını seçә bilәcәk. Xidmәtin xüsusi imkanı trafikin gözlәnilmәz yüksәlişlәri zamanı ötürmә zolağını güclәndirәcәk, idarәolunan portlar isә trafikin planlaşdırılan yüksәlişi üçün hazırlığı tәmin edәcәk.

**Etibarlı bağlantı**

24/7 rejimindә çalışan dәstәk, monitorinq xidmәti vә ikili bağlantı sayәsindә iş prosesindә vacib sayılan tәtbiqlәr hәr zaman onlayn olacaq.

**Rәqabәtdәn kәnar xidmәt**

"Biznesim İnternet Xәtti" xidmәti çәrçivәsindә 100%-lik ötürmә zolağı tәklif olunur. Belә ki, ayrılmış simmetrik sxemlәr vasitәsilә ötürmә zolağının yalnız müştәriyә mәxsus olması, yüklәmә sürәtlәrinin isә sabitliyi tәmin edilәcәk.

"Korporativ müştәrilәrimizә innovativ telekommunikasiya hәllәri ilә xidmәt göstәrmәk mәqsәdilә başladığımız genişmiqyaslı Şәbәkә İnteqrasiyası vә Transformasiya proqramının hazırda tam mәrkәzindәyik" - deyә Korporativ Seqment Biznes strukturunun rәhbәri Giorgos Chatzis qeyd edib. "Xidmәtlәrimizin hüdudlarını genişlәndirmәk, "Azercell"i Azәrbaycanda korporativ müştәrilәr üçün yeganә dayaq halına gәtirmәk transformasiyamızın әsas tәrkib hissәsidir" - G. Chatzis vurğulayıb.

Xidmәtә qoşulmaq üçünbusiness@azercell.com elektron poçt ünvanına müraciәtinizi göndәrә bilәrsiniz.

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.




**Qoç** - Bu gün özünüz dә hiss etmәdәn emosiyalarınızın qurbanına çevrilә bilәrsiniz. Əks cinsin mәnsubu ağlınızı başınızdan almasın. Hisslәr sizin soyuqqanlı davranışınızı pozaraq arzuolunmaz hәrәkәtlәrә vadar edә bilәr.


**Buğa** - Bu gün bir qәdәr xaotik tәsir bağışlasa da, irәliyә doğru hәrәkәtdә müvazinәti itirmәyin. Çәtinliklәr yaranacaq, amma düşünün: bu problemlәrin mövcudluq sәbәblәri arasında sizin konkret hәrәkәtiniz yoxdur.


**Əkizlәr** - Yaşam vә iş taktikatınızın dәyişdirilmәsinin vaxtı çatıb. Bәdbin fikirlәri unudun, nikbin davranın. Yaşananlar, baş verәnlәrdәn faydalanmağa çalışın. Ötәnlәrdәn bәri gәlәn arzular vә istәklәr daha tәhlükәli ola bilәr.


**Xәrçәng** - Bilik vә bacarıqlarınız bu gün diqqәtdәn kәnarda qalmayacaq. İşdә rәhbәrlik mәhz bacarığınıza görә sizә yeni tapşırıq verә bilәr. Günün ilk yarısında tanışların vә dostların yardımına bel bağlaya bilәrsiniz.


**Şir** - Ailә ilә bağlı mәsәlәlәr bu gun ön plana keçәcәk. Onların arasında ciddi problemin ola bilәcәyi dә istisna deyil. Qısqanclıq vә ya psixoloji asılılığın çox pis mәziyyәt olduğunu unutmayın.


**Qız** - Yaşayış yeri, qohumluq әlaqәlәri, qeydiyyat, mәişәtin nizama salınması ilә bağlı mәsәlәlәr xüsusi әhәmiyyәt kәsb edәcәk. Tәhsil vә biliklә bağlı mәsәlәlәrin hәllindә tәnbәllik etmәyin.


**Tәrәzi** - Maddi durumunuz yaxşılaşa bilәr. Maliyyә vәziyyәtinizin sәviyyәsini artırmaq vә bәzi problemlәri hәll etmәk üçün şanslı gündür. Hәmin tәklifi dәyәrlәndirin, mәnfi vә müsbәt yönlәrini nәzәrdәn keçirin.


**Əqrәb** - Bu gün zahirәn üzüyumşaq olun, әsl diplomat tәki davranın. Stil, zövq vә intusiya sahibi olduğunuzu nümayiş etdirin. Bütün bunlar yaxın perspektivdәki mәqsәdinizә çatmağa sizә yardım edә bilәr.


**Oxatan** - Bu gün bütün istәk vә arzularınızı reallaşdırmağa çalışacaqsınız. Fiziki qüvvәniz, yaxud da biliklәriniz vә intellektual qabiliyyәtlәrinizi nümayiş etdirmәk istәyirsinizsә, bu niyyәtinizi tәxirә salın.


**Oğlaq** - Bu gün yaşanacaq hadisәlәrin zahiri görüntüsünә aldanmayın, yaşananların mahiyyәtinә varmağa çalışın. Zahirәn buz dağına bәnzәyib içәridә yanıb qovrulmayın. Tәmkinli, ehtiyatlı, sayıq olun.


**Dolça** - Qarşınıza qoyduğunuz mәqsәdә çatmaq üçün maliyyә mәsәlәlәrinә aydınlıq gәtirin, mövcud problemlәri dәrhal, tәxirә salmadan, tәcili şәkildә çözün. Yaxın әtrafınızdakı insanlar, dostlar vә ya iş yoldaşınız yardım etmәyә can atsalar, imtina etmәyin.


**Balıqlar** - Bu gün istәnilәn әksliklәr vә ziddiyyәtlәr yumşalacaq, qarşıdurmalar xәfif mübahisәlәrә çevrilәcәk. Ən uzaq mәqsәd vә xәyallarınızdakı hәdәf real obyekt tәsiri bağışlayacaq.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*



## Yemәk yeyәrәk ildә bir milyon dollar qazanır

**Amerikalı Bethani Qaskin "Yutub" kanalı vasitәsilә milyoner olub.**

"Qafqazinfo" xәbәr verir ki, o, "Blove's Life" adlı kanalında sadәcә, yemek yediyi zaman çәkilәn videolarını paylaşır. "Yutub" fenomeni qısa bir zamanda 2 milyon izlәyiciyә sahib olub. Onun xәrçәng ayaqlarını yemәsi Qaskini daha da mәşhurlaşdırıb. 44 yaşlı qadın sosial şәbәkәdә mәşhurlaşdıqdan sonra ona reklam tәkliflәri gәlmәyә başlayıb. Qadının il әrzindә bir milyon dollar gәlir әldә etdiyi bildirilir.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.